

# QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏİŞƏT ZORAKILIĞI İLƏ BAĞLI MƏLUMATLARIN TOPLANMASININ VƏ TƏDQİQATLAR APARILMASININ TƏMİN EDİLMƏSİ – İSTANBUL KONVENSİYASININ 11-Cİ MADDƏSİ




Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasına dair sənədlər toplusu

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏİŞƏT ZORAKILIĞI İLƏ BAĞLI MƏLUMATLARIN TOPLANMASININ VƏ TƏDQİQATLAR APARILMASININ TƏMİN EDİLMƏSİ – İSTANBUL KONVENSİYASININ 11-Cİ MADDƏSİ

**Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasına dair sənədlər toplusu**


Lancaster Universitetinin (Birləşmiş Krallıq) sosiologiya üzrə fəxri professoru və YUNESKO-nun Gender araşdırmaları qrupunun sədri
**Silviya Uolbi (Sylvia Walby)**
tərəfindən hazırlanmışdır



Avropa Şurası

Bu sənədin mətninin hamısının və ya bir hissəsinin təkrar nəşri və ya tərcüməsi ilə bağlı bütün sorğular Kommunikasiya Direktorluğuna (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır.

Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi “Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması” layihəsi çərçivəsində hazırlanıb.

*Bu materialda ifadə edilmiş rəylərə görə məsuliyyəti müəlliflər daşıyır və həmin rəylər Avropa Şurasının və Avropa İttifaqının rəsmi mövqeyini əks etdirməyə bilər.*

Bu sənədlə bağlı bütün digər yazışmalar Demokratiya üzrə Baş Direktorluğun Gender bərabərliyi bölümünə ünvanlanmalıdır.

Üz qabığı və dizayn: Sənədlərin və nəşrlərin istehsalı Şöbəsi (SPDP)
Azərbaycan dilində tərtibat: 360Marcom
Şəkillər: Shutterstock

© Avropa Şurası, 2022

# Mündəricat


**GİRİŞ** **5**

**11-Cİ MADDƏNİN ƏHATƏ DAİRƏSİ** **6**

İstanbul Konvensiyasında nəzərdə tutulan zorakılıq formalarının anlayışı 7

İnzibati məlumatların, sorğu məlumatlarının və tədqiqatların əlaqələndirilməsi 10

Toplanmalı məlumatların kateqoriyaları 11

Məlumatların müntəzəm toplanması 11

İctimaiyyətə açıq olan məlumatlar 12

**QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏİŞƏT ZORAKILIĞINA DAİR MƏLUMATLARIN TOPLANMASI VƏ TƏDQİQATLAR** **13**

İnzibati məlumatlar 13

Sorğu məlumatları 18

Tədqiqatlar 23

**QADINLARA QARŞI ZORAKILIQ VƏ MƏİŞƏT ZORAKILIĞINA DAİR MƏLUMATLARIN TOPLANMASININ VƏ TƏDQİQATLARIN ƏLAQƏLƏNDİRİLMƏSİ** **29**

Rəsmi əlaqələndirici orqanlar 29

Avropa Şurası tərəfindən aparılan monitorinq 31

Müqayisəli beynəlxalq təhlilin aparılması 33

**NƏTİCƏLƏR** **38**

**YADDAŞ SİYAHISI** **40**

**AVROPA ŞURASININ MÜHÜM SƏNƏDLƏRİ** **42**

**MƏNBƏLƏR** **43**

# Giriş

Bilgilər qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə aparılması üzrə səmərəli siyasət yürüdülməsinin ayrılmaz hissəsidir. Bilgilərin inkişafı siyasətçilərə və vətəndaş cəmiyyətinə hadisələrin gedişatını qiymətləndirmək və siyasəti təkmilləşdirmək imkanı verir.

Məlumatların toplanması və tədqiqatlar qurbanların müdafiəsi və dəstəklənməsi, eləcə də qadınlara qarşı zorakılığın və məişət zorakılığının aradan qaldırılması üçün zəruri olan siyasət və tədbirlərin hazırlanmasına kömək edir. Bundan əlavə, məlumatların toplanması və tədqiqatlar siyasətlərin bu cür zorakılığın qarşısının alınmasına və ona qarşı mübarizə aparılmasına şərait yaradıb-yaratmadığını müəyyənləşdirmək üçün zəruridir. İnformasiya təminatının səmərəli olması üçün məlumatların təqdim edilməsi hadisələrin praktiki gedişatını nəzərə alan kompleks yanaşmanın tərkib hissəsi olmalıdır. Bu məqsədlə Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası (bundan sonra: "İstanbul Konvensiyası") iştirakçı dövlətlərdən tələb edir ki, təfsilatlı müvafiq statistik məlumatları toplasınlar və Konvensiyanın əhatə dairəsinə düşən zorakılığın bütün formalarının öyrənilməsi sahəsində tədqiqatları dəstəkləsinlər.

Bu sənədin məqsədi siyasətçilərə və praktik mütəxəssislərə məlumatların toplanması və tədqiqatlar barədə ümumi məlumat verməkdən və İstanbul Konvensiyasının 11-ci maddəsini həyata keçirmək üçün nə etmək lazım olduğuna dair praktiki tövsiyələr təqdim etməkdən ibarətdir. Burada müvafiq inzibati və sorğu məlumatlarının hazırlanması üçün lazım olan ölçü çərçivəsi və məlumat toplama alətləri barədə məlumatlar təqdim edilir. Həmçinin üzv ölkələrdə inzibati və sorğu məlumatlarının necə toplana biləcəyinə və müvafiq tədqiqat proqramlarına dair nümunələr təqdim edilir. Sənəd məlumatların toplanması və tədqiqatlarla bağlı İstanbul Konvensiyasının 11-ci maddəsində yer alan tələbləri yığcam şəkildə özündə əks etdirən yaddaş siyahısı ilə başa çatır.

# 11-ci maddənin əhatə dairəsi

İstanbul Konvensiyası (Avropa Şurası 2011a) 1-ci maddəsində Avropada qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə aparılması məqsədi ilə məlumatların toplanmasını tələb edir. Bu maddənin əhatə dairəsinə Konvensiyaya dair İzahedici məruzədə (Avropa Şurası 2011b) və Avropa Şurasının digər mənbələrində (Avropa Şurasının Seminarı 2014; Avropa Şurası 2014 2010; 2008b; 2008a; 2007; 2006) yer alan müddəalarda aydınlıq gətirilir. Məlumatların toplanması həm inzibati formada, həm də sorğu formasında həyata keçirilməlidir. Zorakılığın səbəblərini və qarşısının alınması metodlarını öyrənmək üçün tədqiqatlar aparılmalıdır. Məlumatların toplanması 10-cu maddədə göstərilən milli orqan tərəfindən koordinasiya edilməlidir.

**İstanbul Konvensiyası, 11-ci maddə**

1. Bu Konvensiyanın həyata keçirilməsi məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

(a) bu Konvensiyanın əhatə dairəsinə daxil olan zorakılığın bütün formaları ilə bağlı hadisələr haqqında müntəzəm olaraq təsnif olunmuş müvafiq statistik məlumatları toplamaq;

(b) bu Konvensiyanın əhatə dairəsinə daxil olan zorakılığın əsas səbəblərini və nəticələrini, baş verən halların və çıxarılmış ittiham hökmlərinin sayını, habelə bu Konvensiyanın həyata keçirilməsi üçün görülən tədbirlərin səmərəliliyini araşdırmaq üçün bütün zorakılıq formalarına dair aparılan tədqiqatlara dəstək olmaq.

2. Tərəflər bu Konvensiyanın əhatə dairəsinə daxil olan bütün zorakılıq formalarının yayılmasını və meyllərini qiymətləndirmək məqsədilə əhali arasında müntəzəm sorğular keçirməyə çalışmalıdır.

3. Tərəflər beynəlxalq əməkdaşlığa təkan vermək və müqayisəli beynəlxalq təhlillərin aparılmasına imkan yaratmaq üçün bu Konvensiyanın 66-cı maddəsində göstərilən ekspertlər qrupunu bu maddəyə əsasən toplanmış məlumatlarla təmin edirlər.

4. Tərəflər bu maddəyə əsasən toplanmış məlumatların ictimaiyyət üçün açıq olmasını təmin edirlər.

## İstanbul Konvensiyasında nəzərdə tutulan zorakılıq formalarının anlayışı

Konvensiyanın əhatə etdiyi bütün zorakılıq formaları haqqında məlumatlar toplanmalıdır. Bu zorakılıq formaları Konvensiyanın mətnində iki yerdə müəyyən edilmişdir: birincisi, 3-cü maddədə qadınlara qarşı zorakılıq və məişət zorakılığının anlayışı verilmiş; ikincisi, bu zorakılığın doqquz forması substantiv hüquq normalarının yer aldığı 33-40-cı maddələrdə ayrıca müəyyən edilmişdir:

> 3.*a*: "Qadınlara qarşı zorakılıq" insan hüquqlarının pozuntusu və qadınlara qarşı ayrı-seçkiliyin forması hesab edilir və ictimai və ya şəxsi həyatda baş verməsindən asılı olmayaraq qadınlara fiziki, cinsi, psixoloji və ya iqtisadi zərər, yaxud iztirab yetirən və ya yetirə bilən gender əsaslı bütün zorakılıq əməlləri, o cümlədən bu əməllərin törədiləcəyi ilə hədələmə, habelə məcbur etmə və ya əsassız şəkildə azadlıqdan məhrum etmə kimi başa düşülür;

3.*b:* "Məişət zorakılığı" dedikdə təqsirkarın qurbanla eyni yaşayış yerini paylaşdığından və ya əvvəllər paylaşmış olmasından asılı olmayaraq, ailə daxilində və ya məişətdə, yaxud keçmiş və ya hazırkı ər-arvad və ya partnyorlar arasında baş verən bütün fiziki, cinsi, psixoloji və ya iqtisadi zorakılıq əməlləri başa düşülür;

3.*d:* "Qadınlara qarşı gender əsaslı zorakılıq" dedikdə qadın olduğu üçün ona qarşı yönələn və ya qadınların qeyri-mütənasib olaraq zərər çəkdikləri zorakılıq başa düşülür.

33-40-cı maddələrdə əks olunmuş zorakılığın doqquz formasından səkkizinin: "psixoloji zorakılıq"; "davamlı təqib"; "fiziki zorakılıq"; "zorlama da daxil olmaqla, cinsi zorakılıq"; "məcburi nikah"; "qadın sünnəti"; "məcburi abort və məcburi sterilizasiya"nın "qəsdən törədilmiş əməl" olduqları təqdirdə kriminallaşdırılmasının, digər bir forması olan "seksual qısnama"ya isə cinayət, yaxud digər hüquqi sanksiyanın tətbiqinin zəruriliyi müəyyən edilir. Bu zorakılıq formalarının tərifləri aşağıda verilir.

- **Psixoloji zorakılıq:** "məcbur etmə və ya hədə-qorxu vasitəsilə hər hansı bir şəxsin psixoloji vəziyyətinə ciddi zərər yetirmək" (maddə 33).
- **Davamlı təqib:** "başqa şəxsə yönəldilmiş və onun öz təhlükəsizliyinə görə narahat olmasına səbəb olan davranışı təkrarən nümayiş etdirmək" (maddə 34).
- **Fiziki zorakılıq:** "başqa şəxsə qarşı törədilən fiziki zorakılıq əməlləri" (maddə 35).
- **Zorlama da daxil olmaqla cinsi zorakılıq:** "*a.* bədənin hər hansı bir hissəsi və ya əşya ilə başqa şəxsin bədəninə onun razılığı olmadan cinsi xarakterli vaginal, anal və ya oral müdaxilə etmə; *b.* bir şəxslə onun razılığı olmadan digər cinsi xarakterli əlaqədə olma; *c.* başqa şəxsi üçüncü şəxslə onun razılığı olmadan cinsi əlaqədə olmağa məcbur etmə. Razılıq şəxsin işin konkret halları halları nəzərə alınmaqla qiymətləndirilən azad iradəsinin nəticəsi olaraq könüllü verilməlidir" (maddə 36).
- **Məcburi nikah:** "yetkinlik yaşına çatmış şəxsi və ya uşağı nikaha daxil olmağa qəsdən məcbur etmə" (maddə 37).
- **Qadın sünnəti:** "*a.* qadın cinsiyyət orqanının: böyük dodaqlar, kiçik dodaqlar və ya klitorunun tam və ya hissəvi kəsilməsi, birləşdirilməsi və ya başqa şəkildə sünnət edilməsi; *b.* qadını "a" bəndində sadalanan hallardan hər hansı birinə məruz qalmağa məcbur etmə və ya sadalanan halların icrasını pulla əldə etmə; *c.* hər hansı qızı onun "a" bəndində qeyd edilən əməllərdən istənilən birinə məruz qalmasına təhrik etmə, məcbur

etmə və ya bu əməllərə məruz qalması üçün onu müəyyən yerə çatdırma" (maddə 38).

- **Məcburi abort və məcburi sterilizasiya:** "*a.* öncədən və məlumatlı razılığı olmadan qadının abort edilməsi; *b.* öncədən və məlumatlı razılığı olmadan, həmçinin yerinə yetiriləcək əməliyyat haqqında anlayışı olmayan hər hansı bir qadında onun təbii nəsilartırma qabiliyyətini tükətmək məqsədi ilə və ya bununla nəticələnən hər hansı cərrahi əməliyyatın aparılması" (maddə 39).
- **Cinsi qısnama:** "hər hansı bir şəxsin ləyaqətinə xələl gətirmək məqsədi ilə və ya bununla nəticələnməklə, xüsusən qorxuducu, alçaldıcı, təhqiredici, təcavüzkar və ya düşmən mühiti yaradarkən istənilən cinsi xarakterli sözlü, sözsüz və ya fiziki davranış forması" (maddə 40).

Konvensiyaya dair İzahedici məruzədə (188-ci bənd) izah edildiyi kimi, "fiziki zorakılıq" kateqoriyası qadınlara qarşı həm ölümcül, həm də ölümcül olmayan fiziki zorakılığı əhatə edir.

Cinayət əməli kimi xüsusi olaraq tanınmadığı halda **"namus" naminə bəhanəsilə törədilən cinayətlərin** mövcudluğunun İstanbul Konvensiyasının 42-ci maddəsi ilə tanınması mədəniyyət, adət, din, ənənəyə əsaslanmaqla, yaxud "namus" naminə bəhanəsilə törədilən cinayət əməllərinə haqq qazandırılması cəhdlərinə qoyulan böyük qadağanın bir hissəsidir. Bu ifadə onun dərk edilməsinə əsaslanır ki, "namus" naminə bəhanəsilə törədilən cinayətlər "yeni cinayətlər" deyil, əksinə çoxdan təşəkkül tapmış, qəsdən və öncədən planlaşdırılmış və ya planlaşdırılmamış adamöldürmə, sağlamlığa zərər vurma və s. kimi əməllərdir. Onları bir-birindən fərqləndirən yalnız arxalarında duran motivdir (Avropa Şurasının Məlumat Bülleteni 2012). 42-ci maddəyə əsasən "namus" naminə bəhanəsilə törədilən cinayətlər, "qurbanın mədəni, dini, sosial və ya ənənəvi norma və ya adətlərə yaraşmayan hərəkətlər etməsinə dair iddialar"la haqq qazandırılan zorakılıq aktlarını ehtiva edir (Gender Bərabərliyi Komissiyası 2016).

İnsan alveri ayrıca sazişinin (Avropa Şurasının 2005-ci il tarixli *insan alverinə qarşı mübarizə haqqında Konvensiya*) mövzusu olduğu üçün bu Konvensiyada xüsusi olaraq əhatə edilməyib.

## İnzibati məlumatların, sorğu məlumatlarının və tədqiqatların əlaqələndirilməsi

Məlumatların toplanması maksimum səmərəli olması üçün əlaqələndirilməlidir. İstanbul Konvensiyasının 1-ci maddəsində "hərtərəfli qanunvericilik bazası hazırlamağın" və "kompleks yanaşma qəbul etmək məqsədilə səmərəli əməkdaşlığın" zəruriliyindən bəhs edilir. Məlumatların toplanmasının koordinasiyası 10-cu maddəyə uyğun olaraq yaradılmalı olan rəsmi orqanların vəzifələrinin bir hissəsidir. Bu rəsmi konvensiyanın tərəfləri arasında əməkdaşlıq bu sahədə inkişafa kömək edə bilər. Bundan əlavə, toplanan məlumatları İstanbul Konvensiyasının həyata keçirilməsinin monitorinqinə görə cavabdeh olan müstəqil ekspert qurumunun (Qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı fəaliyyət üzrə ekspertlər qrupu – GREVIO[1]) işinə kömək üçün həmin quruma təqdim edilməlidir.

Toplanan məlumatlar aktual olmalı və koordinasiya edilməlidir. Buna ən yaxşı şəkildə o zaman nail olunur ki, toplanan məlumatların aid edildiyi kateqoriyalar qurbanların qorunması və zorakılığın qarşısının alınması sahəsində çalışan qurumların istifadə etdiyi kateqoriyalarla eyni olsun. Məlumatların toplanması üçün meyarlar sistemində istifadə edilən kateqoriyalar dövlət qurumları tərəfindən müdaxilə tədbirlərinin hazırlandığı konseptual bazanın kateqoriyalarına uyğun olmalıdır. Bu o deməkdir ki, inzibati və sorğu məlumatlarının toplanmasında eyni anlayışlardan və eyni ölçü vahidlərindən istifadə edilməlidir. Bu, cari praktikada heç də bütün hallarda baş vermir, belə ki, məlumatlar qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması üçün nəzərdə tutulan kompleks sistemin tərkib hissəsi qismində deyil, konkret məqsədlər üçün toplanılır. Məsələn, polis orqanı kimi qurumlar özlərinə aid olan məlumatları toplayır, akademik qurumlar isə nəzəriyyələrinə uyğun kateqoriyalardan istifadə edərək sorğular aparırlar. İstanbul Konvensiyası çərçivəsində əməkdaşlıq yalnız ayrı-ayrı qurumların daha konkret məqsədlərinə deyil, qadınlara qarşı zorakılığın bütün formalarına son qoyulmasının daha geniş məqsədinə aidiyyəti olan məlumatlar toplamağa imkan verir. Yuxarıda göstərildiyi kimi, müvafiq anlayışlar Konvensiyanın özündə təqdim edilir. Əlavə vahid kateqoriyalar aşağıda təklif olunur.[2]

1. Bu qurum İstanbul Konvensiyasının 66-cı maddəsi əsasında yaradılmışdır.
2. Bu kateqoriyalar İstanbul Konvensiyasına dair İzahedici məruzənin 76-cı bəndində təklif olunur.

## Toplanmalı məlumatların kateqoriyaları

Toplanan məlumatların Konvensiyanın məqsədlərinə uyğun olması üçün həmin məlumatlarda aşağıdakı informasiyalar əks olunmalıdır:

- zorakılığın növü (növlərin tərifi yuxarıda verilib);
- qurbanın cinsi (zorakılığın qadınlara qarşı baş verib-vermədiyini bilmək üçün) və zorakılıq törədənin cinsi;
- zorakılıq törədənlə qurban arasındakı münasibət (zorakılığın ailədaxili münasibət çərçivəsində baş verib-vermədiyini bilmək üçün);
- qurbanın yaşı (qurbanın "azyaşlı" olub-olmadığını bilmək üçün) və zorakılıq törədənin yaşı;
- coğrafi məkan.

Müvafiq qurumlar arasında əməkdaşlığı asanlaşdıran hərtərəfli baza qura bilmək üçün hər bir qurumda məlumatlar aşağıdakı üç ölçü vahidindən istifadə edilməklə toplanmalıdır:

- qurbanların sayı (və qurbanların əhali sayına faizlə nisbəti);
- hadisələrin (cinayətlərin və ya insidentlərin) sayı (əhali sayına nisbəti);
- zorakılıq törədənlərin sayı (və zorakılıq törədənlərin əhali sayına faizlə nisbəti).

İdeal halda təhlilə yardım üçün əlavə məlumatlar da toplanmalıdır, məsələn:

- əlillik barədə məlumatlar;
- digər məlumatlar (məsələn, miqrant və ya qaçqın statusu barədə);
- əvvəlki ildə (və yaxud digər müvafiq dövrdə, o cümlədən ömür boyu) bu cür zorakılığın baş verib-vermədiyi barədə məlumatlar.

## Məlumatların müntəzəm toplanması

Məlumatların yalnız bir dəfə və ya xüsusi hal üçün deyil, müntəzəm qaydada toplanması tələb olunur ( 1-ci maddə, 1 və 2-ci bəndlər). Bu, zaman keçdikcə baş verən dəyişiklikləri ölçə bilmək üçün vacibdir. Dəyişiklikləri ölçmək üçün məlumatlar eyni kateqoriyalar üzrə təkrar-təkrar toplanmalıdır, əks halda onları müqayisə etmək mümkün olmayacaqdır.

Konvensiyada müəyyənləşdirilməyib ki, "müntəzəm" sözü məlumatların nə dərəcədə tez-tez toplanmalı olduğunu bildirir. İnzibati məlumatlar çox vaxt davamlı surətdə toplanır və ən azı ildə bir dəfə ictimaiyyətə açıqlanır. Bu,

qadınlara qarşı zorakılığa və məişət zorakılığına dair inzibati məlumatlar üçün münasib dövrilikdir. Sorğu məlumatlarının da müntəzəm toplanması tələb olunur. Bəzi hökumət sorğuları illik olaraq aparılır ki, bu da Konvensiyanın əhatə etdiyi zorakılıq növləri üçün münasib dövrilikdir. Bu müddətləri gələcək fəaliyyət üçün hədəf kimi götürmək olar.

## İctimaiyyətə açıq olan məlumatlar

Məlumatlar "ictimaiyyətə açıq olmalıdır" (11-ci maddə, 4-cü bənd). Məlumatların toplanması və dövlət qurumlarında və ya akademik arxivlərdə qalması yetərli deyil. Onlar ictimaiyyətə açıq olmalıdır ki, ictimai müzakirələrin aparılması mümkün olsun. Bu gün bu o deməkdir ki, məlumatlar açıq internet saytında yerləşdirilməlidir. Məlumatların ictimaiyyətə faydalı olması üçün müvafiq qısa xülasələr, o cümlədən indikatorlar təqdim edilməlidir. Məlumatların ekspertlərə faydalı olması üçün onların məlumat bazalarına çıxışlarının olması zəruridir. Həmçinin ictimaiyyətə açıqlanan məlumatlara qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı aktuallıq kəsb edən informasiyaların daxil edilməsini təmin etmək lazımdır. Bu müvafiq məlumatların praktik mütəxəssislər, siyasətçilər və ictimaiyyət üçün asanlıqla əlçatan olan bir yerdə toplanması yaxşı bir təcrübədir. Növbəti addım məlumatların ölkədəki qurumlar arasında, ayrı-ayrı dövrlər üzrə və ideal halda ölkələr arasında müqayisə oluna bilməsini təmin etməkdir.

Məlumatları ictimaiyyətə açıqlayarkən fərdlərin şəxsi həyatının toxunulmazlığına xələl gətirilməməsinə diqqət yetirilməlidir. Bu, İstanbul Konvensiyasının "Məlumatların qorunması" başlıqlı 65-ci maddəsində nəzərdə tutulmuşdur, həmin maddədə "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Avropa Şurası Konvensiyasına (ETS № 108) istinad edilir. Bu ən azından o deməkdir ki, ictimaiyyətə açıqlanan məlumatlarda fərdlərin müəyyənləşdirilə bilməməsini təmin etmək lazımdır.

# Qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair məlumatların toplanması və tədqiqatlar

Məlumatların həm inzibati formada, həm də sorğu formasında toplanması zəruridir. İnzibati məlumatlar adətən zorakılıq qurbanları yardım üçün müraciət etdikləri zaman dövlət xidmətlərinin gündəlik fəaliyyətinin gedişində toplanılır. Əhali arasında aparılan sorğular ümumən dövlət xidmətlərinə məlumat verməyən və ya onlardan istifadə etməyən, həmçinin bunları edən bir çox qurbanlar haqqında məlumatların toplanmasına imkan verir. Bu məlumatları anlamaq, qadınlara qarşı zorakılıq və məişət zorakılığının səbəblərini və nəticələrini müəyyənləşdirmək, eləcə də görülən tədbirlərin səmərəliliyini təhlil etmək üçün tədqiqatlar aparılmalıdır. İttiham hökmlərinin sayı tədqiq edilməli olan mövzulardan biri kimi Konvensiyada xüsusi olaraq qeyd edilmişdir. Bundan əlavə, məlumatları toplayarkən konfidensiallığın qorunmasının zəruriliyi nəzərə almalıdır.

## İnzibati məlumatlar

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı qurbanlarına kömək göstərən bütün qurumlar müvafiq məlumatları toplamalıdırlar. Bu, göstərilən xidmətlərin təkmilləşdirilməsi və zorakılığa son qoyulması üçün məlumat bazasını inkişaf etdirməkdən ötrü zəruridir. Zorakılıq qurbanları yardım üçün ədalət mühakiməsinə müraciət etdikdə, habelə tibbi yardım, məsləhət almaq, yaşayış yeri və ya digər dəstək əldə etmək üçün müraciət etdikdə təmasda olduqları qurumlar tərəfindən inzibati məlumatlar müntəzəm olaraq toplanılır. Bu cür yardımları göstərən bir sıra qurumlar vardır, o cümlədən dövlət (və özəl) səhiyyə xidmətləri, sosial təminat xidmətləri, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları (QHT-lər), məhkəmə və dövlət prokurorluq orqanları.

Baxmayaraq ki, adətən qurumlar bəzi məlumatları artıq toplayırlar, müvafiq məlumatları əldə etmək üçün əlavə tədbirlər tələb oluna bilər. Bu tədbirlər qurumun qabaqcadan müəyyən edilərək qeydə alınmış daxili ehtiyaclarından kənara çıxan məlumat sistemlərinin qurulmasını özündə ehtiva edə bilər. Yuxarıda qeyd edilən, qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması üçün zəruri olan məlumatlar artıq toplanmış olan məlumatlardan əlavə digər məlumatların toplanmasını da tələb edə bilər.

Bir sıra araşdırmalarda inzibati məlumatların toplanması sahəsində qabaqcıl təcrübəyə dair təlimatlar təqdim edilir. Bunlara aşağıdakılar daxildir: Avropa Şurasının 2006-cı il tarixli analitik tədqiqatı (Avropa Şurası 2006); Avropa Şurasının qadınlara qarşı zorakılıq barədə inzibati məlumatlara dair araşdırması (Avropa Şurası 2008a); Rec(2002)5 saylı Tövsiyənin icrasının monitorinqinə dair Avropa Şurasının hesabatları (Avropa Şurası 2014b); Avropa Gender Bərabərliyi İnstitutunun; inzibati məlumatlara dair araşdırması (AGBİ 2014a); Aİ-yə üzv dövlətlərdə qurbanlar üçün ixtisaslaşdırılmış xidmətlərin göstərilməsi ilə bağlı AGBİ-nin araşdırması (AGBİ 2012); və Avropa Komissiyası tərəfindən Aİ-nin müvafiq qanunvericiliyinin qiymətləndirilməsi (Avropa Komissiyası 2010). Bu araşdırmalarda polis, prokurorluq, məhkəmə orqanları, səhiyyə xidmətləri, sosial xidmətlər və ixtisaslaşdırılmış dəstək xidmətləri kimi müxtəlif qurumlar tərəfindən toplanmalı məlumatlar barədə tövsiyələr verilir. Baxmayaraq ki təkliflər tam uzlaşdırılmayıb, bu araşdırmalarda yer alan nümunəvi yanaşmalar İstanbul Konvensiyasının tələbinə uyğun olaraq məlumatların toplanmasını əlaqələndirməli olan rəsmi qurumlar üçün ruhlandırıcı mənbə rolunu oynaya bilər. Məsələn, Avropa Şurasının məişət zorakılığı barədə inzibati məlumatların toplanmasına dair araşdırmasında tövsiyə edilir ki, polis, prokuror, birinci instansiya məhkəmələri (həm cinayət məhkəməsi, həm də mülki məhkəmə), ölümün səbəbini araşdıran müstəntiqlər, səhiyyə xidmətləri və sosial xidmətlər ən azı aşağıdakı məlumatları toplasınlar: məişət zorakılığı hallarını digər hallardan fərqləndirməyə imkan verən məlumatları; qurbanın və zorakılıq törədənin cinsi; qurbanın və zorakılıq törədənin yaşı; qurbanla cinayətkar arasında münasibət; və zorakılığın növü barədə məlumatları. Bundan əlavə, polis, prokuror və məhkəmələr araşdırılmış işlərin nəticəsi barədə məlumatları toplamalıdırlar.

Cinayət ədliyyəsi sistemi Avropa Şurasının bir çox üzv dövlətləri üçün qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair ən mühüm inzibati məlumat mənbələrindən biridir. Konvensiyada qadınlara qarşı zorakılığın və məişət zorakılığının anlayışı verilir və həmçinin substantiv hüquq kateqoriyalarından istifadə edilərək zorakılığın doqquz forması müəyyənləşdirilir. **"Namus"**

**naminə bəhanəsilə törədilən cinayətlər,** hər hansı zorakılıq əməllərinə haqq qazandırılmasında mədəniyyət, adət, din, ənənə, yaxud "namus" naminə bəhanəsindən istifadənin üzərinə qoyulan daha geniş qadağanın bir hissəsi kimi rədd edilir. Bu anlayışlar həm cinayət ədliyyəsi sistemi, həm də bütün xidmətlər spektri tərəfindən məlumatların toplanması üçün ümumi kateqoriyalar toplusunu təmin edə bilər (yuxarıya bax).

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) səhiyyə xidmətlərinə dair inzibati statistikada istifadə edilmək üçün xəstəliklərin təsnifatını hazırlamışdır. ÜST-nin hazırladığı Xəstəliklərin beynəlxalq təsnifatı (ICD) (ÜST 2014) qəsdən xəsarət yetirmənin kodlarını özündə ehtiva edir. Konvensiyanın tələb etdiyi məlumatları təqdim etmək lazımdırsa, bu informasiyanı qurbanın cinsinə və zorakılığı törədənlə qurban arasındakı münasibətə dair əlavə məlumatlarla bir araya gətirmək gərəkdir. Qurbanın cinsi barədə məlumatlar (pasiyent qismində) səhiyyə xidmətləri tərəfindən gündəlik iş fəaliyyətində toplanılır, amma hücumun baş verdiyi məkan bəzən "ailənin evi" kimi qeydə alındığı halda, qurbanla cinayətkar arasında münasibət qeydə alınmır.

Aşağıdakı nümunələr İspaniya və Danimarkada qabaqcıl təcrübənin inkişafını əks etdirir.

## İspaniya[3]

İspaniya müvafiq inzibati məlumatları toplayır və məlumatların saxlanıldığı yeni bir sistem hazırlamaqla bu məlumatların daha yaxşı uzlaşdırılması istiqamətində irəliyə doğru əhəmiyyətli addım atmışdır. Məişət zorakılığı və gender əsaslı zorakılıq qurbanlarının müdafiəsi üçün mərkəzi reyestr (Instituto Nacional de Estadística 2014) müvafiq inzibati məlumatları bir yerə toplayır. Reyestrin yaradılması gender əsaslı zorakılığa qarşı mübarizə üzrə daha geniş hərəkatın bir hissəsidir və bu hərəkat bu sahədə koordinasiya, təhlil və siyasətin hazırlanması işlərinə görə məsul olan "Müşahidə mərkəzinin" yaradılmasını da özündə ehtiva edir (Məişət zorakılığı və gender zorakılığına qarşı mübarizə üzrə Müşahidə Mərkəzi).

Reyestr Ədliyyə Nazirliyində yerləşir. Reyestrdə zorakı cinayətlərin iki forması haqqında məlumatlar saxlanılır: gender əsaslı zorakılıq və məişət zorakılığı. Bu məlumatlara qurban (o cümlədən onun cinsi, yaşı və təqsirləndirilən şəxslə münasibəti), təqsirləndirilən şəxs, cəzalandırılmalı cinayət, hadisə yeri və müvəqqəti tədbirlər (məsələn, mühafizə orderi) və məhkəmənin yekun qərarları

3. Jude Tauersə İspaniya barədə məlumatların toplanmasında göstərdiyi dəstək üçün təşəkkürlər

barədə təfərrüatlar daxildir. Milli Statistika İnstitutu (INE) iki növ məlumatları: mühafizə orderləri və yekun qərarlar barədə Ədliyyə Nazirliyindən aldığı informasiyaları toplayır. Məlumatlar hər il bütün İspaniya üzrə toplanılır. Praktik prosedurlar ondan ibarətdir ki, Ədliyyə Nazirliyi INE-yə hər il bu məlumatları özündə ehtiva edən beş fayl göndərir. INE səhvləri yoxlayır və cinayət barədə məlumatları Cinayət Məcəlləsinin müvafiq müddəasının başlığına və fəslinə uyğun olaraq yenidən kodlaşdırır.

## Danimarka[4]

Danimarka bir sıra "reyestrlərdəki" müvafiq statistik məlumatları bir yerə toplamaqla inzibati məlumatların uzlaşdırılması istiqamətində addım atmış, növbəti addım isə bu reyestrləri identifikasiya nömrələri vasitəsilə əlaqələndirməkdən ibarət olmuşdur (Danimarka Statistika İdarəsi). Bu əlaqələndirmə şəxsin unikal identifikasiya nömrəsindən istifadə etməklə müxtəlif inzibati sistemlərdə onun barəsindəki məlumatları izləməyə imkan verir. Reyestrlərin əlaqələndirilməsi yolu ilə yaradılmış məlumat bazaları Danimarka Statistika İdarəsində saxlanılır və tədqiqatçılar fərdlərin eyniləşdirilə bilməməsini təmin edən şifrələnmiş anonim məlumat toplularına onlayn çıxış əldə edirlər. Danimarkada zorakılıq qurbanlarının dövlət xidmətlərindən istifadəsi barədə bir sıra "reyestrlərdə" toplanan inzibati statistik məlumatlar mövcuddur. Bu reyestrlərə aşağıdakılar barədə statistik məlumatlar daxildir: cinayət (polis tərəfindən qeydə alınan cinayətlər və yekun məhkəmə qərarları); xəstəxana pasiyentləri; ölümün səbəbi; və sığınacaqlardan/müvəqqəti məskunlaşma yerlərindən istifadə.

### Cinayət

Cinayət əməlləri haqqında statistik məlumatlar polis arxivlərindəki məlumatlardan götürülür və Danimarka Statistika İdarəsi və polis tərəfindən birgə idarə olunan Cinayətlərin Reyestri və Zərərçəkənlərin Statistikası adlanan məlumat bazasında saxlanılır. 2001-ci ildən fəaliyyət göstərən polis inzibati sistemi (POL-SAS) cinayət (cinayət məcəlləsinin müvafiq bölməsi), cinayətkar (yaşı və cinsi) və qurban (yaşı və cinsi) barədə məlumatları qurbanın və cinayətkarın fərdi identifikasiya nömrəsi vasitəsilə kombinə edir. POL-SAS-ın məlumatları yalnız zorakılıq, zorlama və soyğunçuluq kimi şəxslərarası xarakter daşıyan cinayətlərə aiddir, oğurluq əməli buraya daxil deyil. Cinayətlərin reyestrində yekun məhkəmə qərarları barədə məlumatlar da var və istintaqın

4. Karin Helviqə Danimarka barədə məlumatların toplanmasında göstərdiyi dəstək üçün təşəkkürlər.

və məhkəmə prosedurlarının gedişində ittihamlarda baş verən dəyişikliklərə uyğun olaraq onlar yenilənir.

Qadınlara qarşı zorakılığa gəlincə, cinayət məcəlləsinin müvafiq maddələri bunlardır: §237 – adam öldürmə; §244 – yüngül dərəcəli zorakılıq; §245 – az ağır dərəcəli zorakılıq; §246 –ağır dərəcəli zorakılıq (bir qayda olaraq, qurbana bərpaolunmaz xəsarət yetirilməklə); və §§216-217 – zorlama ilə əlaqədar maddələr. Cinayət məcəlləsində "məişət zorakılığı" kateqoriyasına aid xüsusi müddəa olmasa da, fərdi identifikasiya nömrəsindən istifadə edərək yaşayış yeri barədə reyestr məlumatlarını əlaqələndirməklə məişət zorakılığını müəyyənləşdirmək və beləliklə qurbanla cinayətkar arasında münasibətin olub-olmadığını, məsələn, müəyyən bir mərhələdə eyni ünvanda yaşayıb-yaşamadıqlarını aşkar etmək mümkündür. Bununla belə, "eyni ünvanda yaşama" məişət zəminində münasibətlərin göstəricisi ola bilsə də, əsas şərt deyil; bu səbəbdən cinayət statistikasında istifadə olunan "məişət zəminnində münasibətlər"in mövcudluğunun qeyri-dəqiq göstəricisidir.

### Xəstəxana pasiyentləri

Danimarka Milli Pasiyent Reyestri sağlamlıq durumunun izlənməsi və xidmətlərin planlaşdırılması üçün istifadə edilən inzibati statistik məlumatlar toplusudur. Reyestrdə fərdi identifikasiya nömrələri ilə müəyyən edilən bütün pasiyentlər üçün xəstəxanalardan daxil olan sağlamlıq durumuna aid bütün məlumatlar qeydə alınır. Zaman keçdikcə məlumatın həcmi artıb. 1977-ci ildən etibarən reyestrdə bütün somatik stasionar pasiyentlərin xəstəxanadan buraxıldığı anda sağlamlıq durumu barədə məlumatlar yer alır, 1995-ci ildən isə bu məlumatların əhatə dairəsi genişləndirilərək ambulator tibb müəssisələri, təcili yardım, psixiatriya şöbələrində müalicə alan ambulator pasientlər haqqında məlumatlar da buraya daxil edilmişdir. Reyestrdə pasiyentin xəstəxanada qalma müddəti, cinsi və yaşı barədə məlumatlar; habelə xəstəxanaya yerləşdirmə səbəbi (xəstəlik, qəza, zorakılıq, özünə xəsarət yetirmə, xəsarətin nəticələri), diaqnoz və prosedurlar daxil olmaqla klinik məlumatlar var. Zorakılığa məruz qalma ilə əlaqədar xəstəxanaya yerləşdirmə sayının hamısı müəyyən edilə bilər, belə ki, xəstəxanaya yerləşdirmə səbəbi barədə qeydlərdə zorakılıq/qəsdən xəsarət yetirmə barədə məlumatlar əks olunur. Qeydə alınan məlumatlara hadisənin baş verdiyi yer (onun evdə baş verib-verməməsi daxil olmaqla) və xəsarət yetirmə üsulu, habelə pasiyentin xəsarət alarkən etdiyi hərəkətlər barədə informasiyalar daxildir. Amma pasiyent ilə zorakılığı törədən arasındakı münasibət barədə məlumat qeydə alınmır. Xəsarətlərin spesifik xarakteri ÜST-ün ICD-10 təsnifatı (Xəstəliklərin beynəlxalq təsnifatı, 10-cu redaksiya)

üzrə kodlaşdırılır. Bu o deməkdir ki, reyestrdə qadınlara qarşı zorakılıq barədə məlumatlar olur, amma konkret olaraq məişət zorakılığı barədə məlumatlar ora daxil edilmir.

**Ölümün səbəbi**

Danimarkada ölüm hallarının statistikası ölkədə daimi yaşayış yeri olan insanlar arasında baş verən bütün ölüm hallarını əhatə edir. Reyestrdəki məlumatlar ölüm şəhadətnamələrindən toplanır və ölümün hansı yolla baş verməsi (xəstəlik, qəza, intihar və ya zorakılıq) və səbəbi barədə məlumatlardan ibarət olur, yəni ölüm səbəbinin xəstəlik və ya xəsarət olması barədə məlumatlar qeydə alınır. Bütün məlumatlar mərhumun fərdi identifikasiya nömrəsi üzrə qeydə alınır.

**Sığınacaqlar**

Danimarkada məişət zorakılığından qaçan şəxslər tərəfindən sığınacaqların (müvəqqəti məskunlaşma yerlərinin) istifadəsi barədə sistematik məlumatlar var. Dövlət maliyyəsi əsasında Zorakılığa Məruz Qalan Qadınlar və Onların Uşaqları üçün Milli Sığınacaqlar Təşkilatı (LOKK) nəzdində fəaliyyət göstərən 46 sığınacaq ilk növbədə məişət zorakılığına məruz qalan qadınlara məsləhətlər verir və müvəqqəti yaşayış yeri təklif edir. Hər bir müraciət barədə məlumatlar sığınacağa ilk müraciət zamanı doldurulan bir səhifəlik sorğu anketi vasitəsilə toplanılır və qadın sığınacaqda qalmağı seçərsə əlavə 6 səhifəlik anket doldurulur. Məlumatlar qadının fərdi identifikasiya nömrəsi üzrə qeydə alınır və şifrələnmiş məlumatlar digər məlumat mənbələri ilə, məsələn, Milli Pasiyent Reyestri və Danimarka Statistika İdarəsinin müxtəlif əhali reyestrləri ilə əlaqələndirilə bilər. Sorğu məlumatları Danimarka Sosial Məsələlər Nazirliyi, Sosial Xidmətlər üzrə Araşdırmalar Mərkəzi tərəfindən təhlil edilir. İllik hesabatlar LOKK-un internet saytında yerləşdirilir (LOKK).

## Sorğu məlumatları

Sorğular zorakılıq qurbanları barədə mühüm məlumat mənbələridir, belə ki, qurbanların çoxu kömək üçün müvafiq qurumlara müraciət etmirlər və bu səbəbdən onlar barədə məlumatlar inzibati statistikaya daxil edilmir. Sorğular kömək üçün müraciət etməyən zorakılıq qurbanlarının əksəriyyəti haqqında reprezentativ informasiya əldə etməyin yeganə yoludur. Sorğular həm də zorakılıq səviyyəsinin artdığını və ya azaldığını müəyyənləşdirməyin yeganə etibarlı yoludur. Bu onunla əlaqədardır ki, kömək üçün dövlət qurumlarına müraciət edənlərin sayındakı dəyişikliklər müraciətlərin səbəbi olan "real"

zorakılıq hallarının sayındakı dəyişikliklərdən daha çox, qurbanların dövlət qurumlarına müraciət etmək, habelə dövlət qurumlarının bu müraciətləri qeydə almaq istəyindəki dəyişiklikləri əks etdirə bilər.

Konvensiyanın tələbinə əsasən, "Tərəflər bu Konvensiyanın əhatə dairəsinə daxil olan bütün zorakılıq formalarının yayılmasını və meyllərini qiymətləndirmək məqsədilə əhali arasında müntəzəm sorğular keçirməyə çalışmalıdır" (11-ci maddə, 2-ci bənd). Sorğuların müntəzəm dövriliklə keçirilməsi barədə tələb Konvensiyaya zaman keçdikcə baş verən dəyişikliklərin xarakterini müəyyənləşdirmək məqsədi ilə daxil edilmişdir.

Müvafiq statistikanın və indikatorların əldə edilməsi məqsədi ilə qadınlara qarşı zorakılığa və məişət zorakılığına dair sorğunun aparılmasının ən yaxşı üsullarının icmallarını təqdim edən (Uolbi 2005; Uolbi və Mayhill 2001) və zəruri texniki detallara dair praktik tövsiyələr verən vəsaitlər vardır ki, onların da sırasına xüsusən BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin bu vəsaiti daxildir: *Qadınlara qarşı zorakılığa dair statistikanın hazırlanması üçün rəhbər prinsiplər: Statistik sorğular (2014)*. Bu cür sorğunun hazırlanmasında və aparılmasında bir çox yeniliklər edilmişdir ki, bunların da arasında aşağıdakıları qeyd etmək olar: Ümumdünya Səhiyyə Təşkilatının Qadınların sağlamlığı və qadınlara qarşı məişət zorakılığı üzrə ölkələrarası araşdırması (ÜST 2005), Cinayətlərin qarşısının alınması və nəzarətdə saxlanması üzrə Avropa İnstitutunun (HEUNI) Qadınlara qarşı zorakılığa dair beynəlxalq sorğusu (HEUNI 2013) və Aİ-nin Əsas Hüquqlar üzrə Agentliyinin Aİ ərazisində keçirilmiş Qadınlara qarşı zorakılığa dair sorğusu (FRA 2014), eləcə də Birləşmiş Krallıq və Danimarka daxil olmaqla Avropa Şurasının bir sıra üzv dövlətləri tərəfindən aparılmış sorğular (aşağıya bax).

Həll edilməli olan əsas problemlərə aşağıdakılar daxildir: vəsait məhdudluğu şəraitində çalışmaqla əhali üzrə kifayət qədər geniş və reprezentativ nümunənin əldə edilməsi; vəsait məhdudluğu şəraitində çalışmaqla zaman keçdikcə baş verən dəyişiklikləri ölçmək üçün məlumatların müntəzəm toplanmasının təmin edilməsi; sosial qruplar və ölkələr üzrə fərqlənməyən zorakılıq təcrübələrini aşkarlamaq istiqamətində daimi istəyin təmin edilməsi; uzlaşan məlumatlar sisteminin formalaşdırılması üçün sorğuda istifadə edilən kateqoriyaların (anlayışların və ölçü vahidlərinin) inzibati məlumatların toplanmasında istifadə olunan kateqoriyalara uyğun olmasının təmin edilməsi; sorğu aparanlar üçün tam təlim keçirilməsinin və ideal halda, kateqoriyaların (anlayışların və ölçü vahidlərinin) beynəlxalq kateqoriyalarla müqayisə edilə bilməsinin təmin edilməsi.

Bunlar hazırda az sayda ölkənin tam yerinə yetirə bildiyi çətin tələblərdir. Bu çətinliyi tədricən həyata keçirilən təkmilləşdirmələri özündə ehtiva edən mərhələli yanaşma yolu ilə və yaxud bu sahədəki praktikanın yenidən nəzərdən keçirilməsi və dəyişdirilməsi vasitəsilə aradan qaldırmaq olar. Bir çox ölkələr qadınlara qarşı zorakılığın miqyasını müəyyənləşdirmək üçün ixtisaslaşdırılmış birdəfəlik sorğu keçirmişlər ki, bu da ictimaiyyətin məlumatlılığının artırılmasına imkan yaratmışdır.[5] Bu sahədə siyasətin təkmilləşdirilməsi üçün belə məlumatların müntəzəm toplanması təmin edilməlidir.

İtaliya qadınlara qarşı zorakılıqla bağlı ixtisaslaşdırılmış sorğuları təkrarən keçirən az sayda ölkələrdən biridir. Bu məsələyə aid ilk sorğu 2006-cı ildə, sonrakı sorğu isə 2014-cü ildə aparılmışdır. Sorğu İtaliya Milli Statistika İdarəsi (ISTAT) tərəfindən aparılır. ISTAT qadınlara qarşı zorakılığa dair sorğusunun gedişində qadınlara qarşı onların cinsi tərəf-müqabili olan və olmayan şəxslər tərəfindən törədilən zorakılığın bir neçə formasının, o cümlədən fiziki, cinsi, psixoloji və iqtisadi zorakılığın yayılma dərəcəsi və xüsusiyyətləri barədə məlumatları toplayır. O, həmçinin kömək üçün müraciət edən qurbanların davranışları və zorakılıq barədə məlumat verilməməsinin səbəbləri, habelə qadınlara qarşı zorakılığın nəticələri, risklər, qoruyucu faktorlar və məsrəflər barədə məlumat toplayır. Sorğu yaşı 16-dan 70-dək olan qadınlar arasından seçilən 25.000 qadın arasında aparılır. 2014-cü ildə aparılmış sorğuya İtaliyada yaşayan altı əsas millətin (o cümlədən rumın, ukraynalı, alban, mərakeşli, moldavan və çinlilərin) İtaliya vətəndaşı olmayan təmsilçiləri də daxil edilmişdir. Sorğu italyan qadınlar üçün kompüterlərin (CATI) köməyi ilə telefonla aparılmış, İtaliya vətəndaşlığı olmayan qadınlar üçün isə üzbəüz müsahibələrdən istifadə edilməklə aparılmışdır. ISTAT bu məsələyə həsr olunan sorğuları müntəzəm dövriliklə ən azı dörd ildən bir keçirməyi hədəfləyir.[6]

Baxmayaraq ki, məlumatlar qadınlara qarşı zorakılığa və məişət zorakılığına həsr olunan ixtisaslaşdırılmış sorğular vasitəsilə toplana bilər, müntəzəm

5. Nazirlər Komitəsinin üzv dövlətlərə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyəsinin icrasının monitorinqinin dördüncü mərhələsinin (2014) gedişində Avropa Şurasına 47 üzv dövlətdən 21-i bildiriblər ki, onların əsas mövzusu qadınlara qarşı çoxsaylı zorakılıq formalarının yayılmasının tədqiqindən ibarət olan reprezentativ milli sorğu keçiriblər. Bu 21 ölkədən 6-sı qadınlara qarşı zorakılıq məsələsinə həsr olunan sorğuları təkrarlayıb. Bəziləri (Çexiya və Finlandiya) keçirilmiş üç belə sorğunun tarixlərini təqdim etdilər.
6. İtaliyanın keçirdiyi sorğu barədə məlumat "Qadınlara qarşı zorakılığa və məişət zorakılığına dair məlumatların toplanması: İstanbul Konvensiyasının tələblərinə cavab vermək istiqamətində irəliləmək" mövzusunda beynəlxalq konfrans zamanı İtaliya Milli Statistika İdarəsinin təmsilçisi Mariya Cüzeppina Muratore tərəfindən təqdim edilmişdir (Kiyev, Ukrayna, 3-4 sentyabr 2015-ci il).

olaraq sorğu məlumatları əldə etməyə nail olan ölkələr bu uğura müvafiq sualları başqa bir sorğuya əlavə sual kimi daxil etməklə və ya həmin sorğu anketinə müvafiq sualların yer aldığı ayrıca modul əlavə etməklə nail olmuşlar. Bu, sorğu məlumatlarının əldə edilməsinin xərclərini azaldır. Ən azından Avropada zaman keçdikcə baş verən dəyişiklikləri təhlil etməyə imkan yaradan illik məlumatları özündə əks etdirən sorğular daha geniş mövzuları, xüsusən cinayətkarlıq və ya sağlamlıq mövzularını əhatə edən digər sorğuların tərkib hissəsi kimi aparılmışdır. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı əlavə sualların müəyyən bir sorğuya daxil edilməsi bu mövzuda ayrıca sorğu keçirmək qədər bahalı olmur. Avropanın heç bir ölkəsi qadınlara qarşı zorakılığa dair ixtisaslaşdırılmış sorğuların eyni metodologiya və suallardan istifadə edilməklə müəyyən dövriliklə təkrarlanması üçün zəruri olan resursları əldə edə və yararlana bilməmişdir. Hətta birdən çox ixtisaslaşdırılmış sorğuların keçirildiyi hallarda belə, fərqli metodologiyalardan istifadə edilmişdir ki, bu da zaman keçdikcə müqayisələr aparmağı mümkünsüz edir.

Çıxarılan nəticə ondan ibarətdir ki, müntəzəm təkrarlanan müstəqil sorğular üçün resurslar əldə etmək o qədər çəkindirici və böyük bir problemdir ki, dövlətlərin hazırda müntəzəm olaraq keçirilən mövcud sorğulardan hər hansı birinə bir sıra müvafiq sualları əlavə etmələri məsləhət görülür. Avropada belə sorğu, yəqin ki, ya sağlamlıq, ya da cinayətkarlıq mövzusunda aparılan sorğudur.

### Birləşmiş Krallıqdakı sorğular

İngiltərə və Uelsdə cinayətkarlığa dair sorğu (CSEW) çərçivəsində hər il qadınlara qarşı zorakılığa və məişət zorakılığına dair məlumatlar toplanılır. Bu məlumatlar fərdlərin və ev təsərrüfatı üzvlərinin əvvəlki ildə məruz qaldığı cinayətlərə dair sorğu kontekstində toplanılır.

Sorğu nəticəsində qurbanlar və zorakı cinayətlər barədə məlumatlar əldə edilir. Qurbanlar barədə məlumatlar qurbanların cinsi və cinayətlərin məişət zəminində münasibətlər çərçivəsində (cinsi tərəf-müqabil və ya digər ailə üzvü tərəfindən) törədilib-törədilməməsi üzrə qruplaşdırılaraq təsnif olunur. Buraya qurbanın yaşı və digər əsas parametrlər barədə, o cümlədən onun etnik, dini mənsubiyyəti və əlilliyi haqqında məlumatlar daxildir. Əsas sorğu anketi zorakı cinayətlərin sayı və xarakteri barədə məlumatları özündə əks etdirir. Əsas sorğu anketindən istifadə edilərək toplanan məlumatlar kodlaşdırma mütəxəssislərinin köməyi ilə Birləşmiş Krallıqdakı cinayət kateqoriyaları üzrə kodlaşdırılır. Daha sonra şəxsə qarşı zorakılıq (ciddi və ya digər növ xəsarətin yetirilməsi və adi hücum) barədə məlumatlar qurban ilə zorakılıq törədən arasındakı münasibətlər (ailə əlaqəsi, tanış və yaxud yad adam) üzrə kateqoriyalara bölünür.

İngiltərə və Uelsdə cinayətkarlığa dair sorğu (CSEW) çərçivəsində zaman baxımından geniş dövrü əhatə edən məlumatlar əldə edilmişdir, belə ki, bu sorğunun keçirilməsi 1980-ci illərin ortalarından başlamışdır və 2000-ci ildən bəri o, hər il keçirilir. Bu o deməkdir ki, o, dünyada məişət zorakılığı və qadınlara qarşı zorakılıq mövzusunda ən uzun dövrü əhatə edən silsilə sorğulardan biridir. Sorğu əvvəlcə Britaniyada cinayətkarlığa dair sorğu adlanırdı (İngiltərə və Uels Birləşmiş Krallıq əhalisinin 89%-ini əhatə edir), amma Birləşmiş Krallıqda hökumətdəki yenilikləri əks etdirmək üçün bu yaxınlarda onun adı dəyişdirildi. Bu sorğunun məlumatları gender əsaslı zorakılığın təhlilinə (Uolbi və başqaları 2014), o cümlədən zorakılığın zərərlərinin təhlil edilməsinə yardım üçün istifadə edilir (Uolbi 2004).

Sorğu anketi iki hissədən ibarətdir: əsas anket və sərbəst surətdə doldurulan modul. Əsas anketin doldurulmasında (oradakı suallar yuxarıda təsvir edilmişdir) ənənəvi üzbəüz sorğu-sual formasından istifadə edilir. Sərbəst surətdə doldurulan modulda isə respondent suallara cavablarını konfidensial qaydada və hətta sorğu aparan şəxsdən də gizli şəkildə portativ kompüterə daxil edir (Uolbi və Allen 2004). Sərbəst surətdə doldurulan modulda məişət zorakılığı, cinsi zorakılıq və qısnama ilə bağlı məlumatlar respondentlər tərəfindən daha çox açıqlanır və açıqlanma göstəricisi əsas anketlə müqayisədə təxminən dörd dəfə yüksəkdir.

CSEW yüksək keyfiyyətli sorğudur. Sorğudakı sualların cavablandırılma faizi yüksəkdir. Bütün respondentlərə eyni qaydada yanaşılır. Sorğu geniş əhatəli olmaqla təxminən 40.000 respondenti əhatə edir, bu rəqəmdə illər üzrə cüzi fərqlər ola bilər. Sorğu, əhalinin reprezentativliyinin təmin edilməsi üçün kompleks şəkildə hazırlanır ki, bu da konkret məqsədlər üçün məlumatların toplanmasına, məsələn, polis qüvvələrinin səlahiyyət dairəsindəki hər bir ərazi üzrə məlumatların əldə edilməsinə imkan verir. Sorğu ilk öncə Daxili İşlər Nazirliyi tərəfindən hazırlanırdı; hazırda isə Milli Statistika İdarəsi (ONS) tərəfindən aparılır, yerlərdəki işlər isə müqavilə əsasında TNS BMRB adlı özəl sorğu firmasına həvalə olunur.

CSEW sorğuları barədə ətraflı məlumatları, o cümlədən aşağıdakı informasiyaları CSEW-in internet saytından sərbəst surətdə əldə etmək olar: ümumi icma (ONSa), istifadəçi üçün texniki təlimatlar (ONSb), tam anket (ONSc) və illik nəticələr (ONSd).

### Danimarkadakı sorğular

Danimarkada əhali arasında sorğular keçirilir ki, bu sorğulara da qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı suallar daxil edilir. Müvafiq suallar 2000-ci ildən etibarən müntəzəm olaraq aparılan Sağlamlıq məsələləri ilə bağlı milli sorğulara (NHIS) daxil edilmişdir.

Suallar fiziki zorakılığa, zorakılıq təhdidlərinə və cinsi istismara məruz qalma ilə əlaqədardır; eləcə də qurbanın cinsi və qurban ilə zorakılığı törədən arasında münasibətin olub-olmaması barəsindədir. Sorğuya aşağıdakı suallar daxil edilir: son bir il ərzində şəxs: itələnməyə, silkələnməyə və ya şillələnməyə məruz qalıbmı; ona təpiklə, yumruqla və ya hər hansı əşya ilə zərbə endirilibmi; mebelə, divara və ya pilləkənlərdən aşağıya və yaxud analoji əşyalara doğru itələnibmi; boğulubmu və ya silahlı hücuma məruz qalıbmı; digər formada zorakılığa məruz qalıbmı; öz razılığı olmadan cinsi hərəkətlərə sövq edilibmi.

Yaşanan zorakılıq halları ilə bağlı suallara cavab almaq üçün sağlamlıqla bağlı keçirilən müntəzəm sorğuların məlumatlarından istifadə edilməsi müvafiq məlumatların stabil, rentabelli və uzunmüddətli şəkildə toplanmasına imkan yaradır və beləliklə qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində zaman keçdikcə baş verən dəyişikliklərin davamlı təhlilini aparmaq mümkün olur. Sağlamlıq məsələləri ilə bağlı milli sorğuların (NHIS) məqsədi danimarkalıların sağlamlıq durumu və xəstəlikləri barədə məlumatları, eləcə də onların sağlamlığına və xəstələnməsinə təsir edən amillər haqqında informasiyaları əldə etməkdir. Zorakılıq sağlamlığa əhəmiyyətli dərəcədə zərərli təsir göstərdiyindən bu barədə suallar sorğuya daxil edilir.

Danimarka bundan öncə 1970-ci illərdən başlayaraq qadınlara qarşı zorakılıqla bağlı bir sıra digər ixtisaslaşdırılmış sorğular da keçirmişdir. Amma bir çox digər ölkələrdə olduğu kimi, bu ixtisaslaşdırılmış sorğuların da metodologiyası və əhatə dairəsi araşdırma predmetindən asılı olaraq fərqli olmuşdur, buna görə də sorğular nəticəsində  əldə edilən məlumatlardan istifadə etməklə zaman keçdikcə tendensiyaların dəqiq təhlilini aparmaq mümkün olmamışdır. Zorakılıq barədə sualları sağlamlığa dair ümumi sorğuya daxil etməklə Danimarka ölkə əhalisi arasında zorakılıq tendensiyaları ilə bağlı statistik məlumatları əldə edə bilmişdir.

## Tədqiqatlar

İstanbul Konvensiyasının 11-ci maddəsi iştirakçı Tərəflərdən tələb edir ki, zorakılığın əsas səbəblərini və nəticələrini, baş verən halların və çıxarılmış

ittiham hökmlərinin sayını, habelə bu Konvensiyanın həyata keçirilməsi üçün görülən tədbirlərin səmərəliliyini araşdırmaq üçün bütün zorakılıq formalarına dair aparılan tədqiqatlara dəstək olsunlar. Bu tədqiqatlar ona görə önəmlidir ki, siyasətin hazırlanması dəlillərə əsaslana bilsin. Zorakılığın səbəblərinin öyrənilməsi üçün bu tədqiqatlar məlumatların toplanması ilə məhdudlaşmamalıdır, belə ki, onlar zorakılığın səbəblərinin onun nəticələri ilə əlaqəsini izah etmək üçün nəzəriyyənin qurulmasına töhfə verməlidir. Konvensiyaya onun "həyata keçirilməsi üçün görülən tədbirlərin səmərəliliyinin" artırılmasının zəruriliyi barədə müddəa daxil edilmişdir. Bu o deməkdir ki, qanunvericilik və siyasətdəki dəyişikliklər izlənməli və qiymətləndirilməli, eləcə də qadınlara qarşı zorakılıq və məişət zorakılığı hallarının azaldılmasında onların səmərəliliyi dəyərləndirilməlidir. Müvafiq olaraq, Konvensiya yetərincə maliyyələşdirilən kompleks tədqiqatlar sisteminin olmasını tələb edir.

Qadınlara qarşı zorakılığa dair tədqiqatlar müxtəlif yollarla təşkil edilir ki, onların da sırasına yetərincə maliyyələşdirilən hərtərəfli tədqiqat proqramları; qanunvericilik dəyişikliklərinin nəticələrinin araşdırılmasına yönələn tədqiqatlar; ittiham hökmlərinin sayı ilə bağlı araşdırmalar; və universitetlərdə aparılan xüsusi araşdırmalar daxildir.

Hərtərəfli strategiyanın tərkib hissəsi qismində qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı mübarizə üçün dövlət tərəfindən maliyyələşdirilən tədqiqat proqramlarının sayı nisbətən çox azdır. Bəzi dövlətlərdə gender əsaslı zorakılıq hallarını azaltmağa kömək edən bilgilərin inkişafını və mübadiləsini dəstəkləyən strategiyalar var. Belə şəraitdə tədqiqatlar daha geniş hədəfin tərkib hissəsi kimi aparıla bilər. Bunun nümunələrindən biri Aİ tərəfindən maliyyələşdirilən, öncə "Dafne" adlanan, bir qədər aşağıda təsvir edilən proqramdır, bu proqram çərçivəsində bəzən praktik yönümlü tədqiqat komponentini özündə ehtiva edən layihələri dəstəkləyən qabaqcıl təcrübələrin mübadiləsinə dəstək verilir (Avropa Komissiyası, "Dafne" proqramının alətlər toplusu). Digər bir nümunə Norveç tərəfindən maliyyələşdirilən, müəyyən Avropa ölkələri ilə əlaqədar olan tədqiqat proqramıdır (Norveç Qrantları). Avropa xaricində qadınlar barəsində zorakılıq məsələlərini araşdıran, prioritet ölkə kimi qəbul edilmiş inkişaf etməkdə olan ölkələrdə Birləşmiş Krallığın Beynəlxalq İnkişaf Departamenti tərəfindən maliyyələşdirilən tədqiqat proqramı mövcuddur, həmin proqram bir qədər aşağıda təsvir edilir. Bundan əlavə, Danimarkada gender əsaslı zorakılığın qurbanlarının dövlət xidmətlərindən nə dərəcədə istifadə etdiyinə dair məlumatları özündə ehtiva edən məlumat bazalarının yaradılması bu ölkədə gender əsaslı zorakılığa dair tədqiqatların aparılmasını asanlaşdırmışdır. Dövlət bu tədqiqatların aparılmasını mümkün

edən məlumatların istifadəsi ilə bağlı "reyestrlərin" və müvafiq qanunların hazırlanmasını dəstəkləmişdir. Bu, tədqiqatların maliyyələşdirilməsi üçün proqram deyil, tədqiqatların aparılmasının asanlaşdırılmasına yönəlmiş maliyyələşdirilən fəaliyyətdir. Bu fəaliyyət aşağıda təsvir edilir.

Konkret qanunvericilik dəyişikliklərinin nəticələrini araşdıran, ayrıca maliyyələşdirilən tədqiqatlar mövcuddur. Məsələn, Avstriya və Almaniya qurbanların mühafizəsinə dair məhkəmə qərarları barədə qanunların təsirlərini qiymətləndirməyə və zərurət olduqda onları təkmilləşdirməyə yönələn geniş əhatəli tədqiqatları maliyyələşdirmişlər. Yeni qanunvericilik aktlarının təsirləri ilə bağlı bu cür qiymətləndirmələrin həyata keçirilməsi 11-ci maddəyə əsasən aparılması tələb olunan bir çox tədqiqat növlərindən biridir.

Konvensiya qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə əlaqədar cinayət ədliyyəsi sisteminin səmərəliliyinin mühüm göstəricisi olan ittiham hökmlərinin sayının araşdırılmasını tələb edir. İttiham hökmlərinin sayı cinayət ədliyyəsi sisteminə bildirilən cinayətləri törədənlərin məhkum edilmə səviyyəsini müəyyənləşdirir. İttiham hökmlərinin sayının araşdırılmasının zəruriliyi Konvensiyanın 11-ci maddəsinin 1-ci bəndinin "b" yarımbəndində qeyd edilmişdir. İttiham hökmlərinin sayı ya cinayət ədliyyəsi sisteminin müxtəlif hissələri üçün (məsələn, yalnız cinayət təqibi anından ittiham hökmünün çıxarıldığı anadək olan hissə) və ya bütövlükdə sistem üçün müəyyən edilə bilər (məsələn, sorğular zamanı barəsində məlumat verilən cinayətlərin sayı ilə məhkəmələr tərəfindən təqsirkarların məhkum edilməsi hallarının sayının müqayisəsi üçün). Cinayət ədliyyəsi sisteminin müəyyən bölmələrinə xas olan göstəricilər həmin konkret bölmələr üçün aktuallıq kəsb etsə də, ittiham hökmlərinin sayının müəyyənləşdirilməsi bütövlükdə cinayət ədliyyəsi sistemi üçün mühüm əhəmiyyət daşıyır. İttiham hökmlərinin sayının araşdırılması üçün əvvəldən axıra qədər eyni anlayışların və ölçü vahidlərinin istifadə edildiyi məlumatlara sahib olmaq lazımdır. Fərqli anlayışlardan və ya ölçü vahidlərindən istifadə edildiyi təqdirdə cinayət ədliyyəsi sisteminə daxil olan "işlərdən" neçəsinin ittiham hökmü ilə nəticələndiyini öyrənmək çətin olur, çox zaman isə mümkünsüz olur. Beləliklə, polislərin, prokurorların, hakimlərin, məhkəmələrin, penitensiar və probasiya xidmətlərinin eyni anlayışlardan və vahidlərdən istifadə etməsi vacibdir. Hazırda bir çox ölkələr cinayət ədliyyəsi sisteminin müxtəlif mərhələlərində fərqli vahidlərdən istifadə edirlər: polis orqanları ölçü vahidi kimi "cinayətlərdən" (cinayət hadisələri, insidentlər), məhkəmə orqanları və penitensiar xidmətlər isə bu cür vahid kimi "pozuntu törədənlərdən" (hüquqpozanlar, cinayətkarlar) istifadə edirlər. (Bunlar çox zaman vahid qismində "zərərçəkənləri" götürən ixtisaslaşmış xidmətlərin istifadə etdiyi

vahidlərdən fərqlənir). Hazırda cinayət ədliyyəsi sisteminin müxtəlif hissələrində ölçü vahidi kimi müxtəlif vahidlərdən ("qurbanlar", "cinayətlər", "hüquqpozanlar") istifadə edən ölkələr bu vahidləri uzlaşdırmalıdırlar ki, Konvensiyanın tələb etdiyi kimi ittiham hökmlərinin sayını səmərəli şəkildə müəyyənləşdirə bilsinlər. Bunun üçün onlar ya bütün cinayət ədliyyəsi sistemi və məhkəmə sistemi çərçivəsində üstünlük verilən tək bir ölçü vahidini seçməli, ya da cinayət ədliyyəsi sisteminin hər bir mərhələsində məlumatların toplanması zamanı vahidlərin hər üçündən istifadə edilməsini tələb etməlidirlər. Böyük ehtimalla, yalnız bir ölçü vahidi üzrə məlumatları toplamaqdansa, hər üç vahidin istifadəsinin tələb edilməsi qurumlararası əməkdaşlığı təmin etmiş olar. Məsələn, hər bir mərhələdə qurbanların, cinayətlərin və hüquqpozanların sayının hesablanması bir mərhələdə qurbanların (məsələn, sorğu aparanlar tərəfindən), digərində cinayətlərin (məsələn, polis tərəfindən), üçüncüsündə isə hüquqpozanların (məsələn, məhkəmələr tərəfindən) sayının hesablanmasından daha yaxşıdır.

Universitetlər də qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair xüsusi tədqiqatlar aparırlar. Universitetlərdə qadınlara qarşı zorakılıq mövzusunda araşdırma aparan təcrübəli tədqiqatçılar icması mövcud olsa da, bu sahədə tədqiqatlar dövlət tərəfindən maliyyələşdirilən proqramlardan daha çox, ayrı-ayrı tədqiqatçıların və universitet mərkəzlərinin[7] xüsusi təşəbbüslərinin, səylərinin və qətiyyətinin sayəsində aparılır. Amma digər tərəfdən, bu sahə gender əsaslı zorakılıq hallarının qiymətləndirilməsi ilə bağlı araşdırmaları əhatə edən, hərtərəfli və sistematik tədqiqat proqramlarının hazırlanması vasitəsilə əhəmiyyətli dərəcədə genişləndirilə bilən dinamik bir tədqiqat sahəsidir.

### İnkişaf etməkdə olan ölkələrdə Birləşmiş Krallığın tədqiqat proqramı

Birləşmiş Krallığın Beynəlxalq İnkişaf Departamenti (DFID) inkişaf etməkdə olan prioritet ölkələrdə qadınlara və qızlara qarşı zorakılığın (QQQZ) qarşısının alınması yollarını araşdırmaq üçün beş illik tədqiqat proqramına 25 milyon funt sterlinq ayırmışdı (DFİD 2015). Proqram QQQZ-nin qarşısını almaq üçün hansı üsulların işə yaradığı barədə, o cümlədən əsas qabaqlayıcı strategiyalar, qadınlar və qızların zorakılığa müqavimətinə dəstək verən müdaxilələr və QQQZ-nin qarşısını almaq üçün xüsusi cavab mexanizmləri haqqında bilgilər əldə etmək məqsədi daşıyır. Proqram iki hissədən ibarətdir: zorakılığın qarşısının alınmasına və ya qurbanların/zərərçəkənlərin tələbatlarının ödənilməsinə innovativ yanaşmaları araşdırmaq üçün seçilmiş 10-14 milli və ya beynəlxalq təşkilata maliyyə vəsaiti verilir; həmçinin mövcud perspektivli müdaxilələrin

7. London Metropoliten Universitetindəki CWASU bölməsi (Uşaq və qadınlara qarşı pis rəftarın hallarının tədqiqi bölməsi) buna misal ola bilər.

səmərəliliyini müəyyənləşdirmək üçün onların təsirinin araşdırılmasını və qiymətləndirilməsini özündə ehtiva edən əməliyyatlara maliyyə vəsaiti ayrılır. Tədqiqat DFİD-in "prioritet ölkələr" kimi qəbul etdiyi inkişaf etməkdə olan 28 ən yoxsul ölkəyə və ya ən həssas qrupa aid dövlətlərə yönəlmişdir. Proqram Cənubi Afrika Tibbi Tədqiqatlar Şurasının rəhbərlik etdiyi konsorsium tərəfindən London Gigiyena və Tropik Təbabət Məktəbi və "Sosial İnkişafın İdarə Edilməsi" təşkilatı ilə tərəfdaşlıq şəraitində idarə olunur.

Bu, ümidverici bir təcrübədir, belə ki, o, həm yaxşı təşkil edilən, həm də yetərincə maliyyələşdirilən böyük bir tədqiqat proqramıdır, baxmayaraq ki, bu halda proqrama Avropa ölkələri daxil deyil.

### Aİ-nin "Dafne" proqramı

"Dafne" proqramı gender əsaslı zorakılığın qarşısının alınması sahəsində qabaqcıl təcrübələrin mübadiləsini dəstəkləmək üçün Aİ tərəfindən maliyyələşdirilmişdir. Proqram əsasən qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsi yolu ilə praktik bilgilərin formalaşdırılmasına yönəlmiş olsa da, müvafiq sahədə bilik və təcrübələrin artırılması anlayışını özündə əhatə edir və bununla da təcrübəyə əsaslanan inkişafa dəstəyin tərkib hissəsi kimi tədqiqatların maliyyələşdirilməsinə gətirib çıxarır. Maliyyələşdirilmiş 412 layihə sayəsində əldə edilmiş biliklər və aparılmış tədqiqatlar həm tədqiqatçılar, həm də siyasətçilər tərəfindən yüksək qiymətləndirilmişdir. 1997-ci ildən başlanmış "Dafne" proqramı üç əsas mərhələdən ibarət olmuşdur (Avropa Komissiyasının "Dafne" proqramının alətlər toplusu), proqramın sonuncu mərhələsi ("Dafne-III" proqramı) 2007-ci ildən 2013-cü ilədək davam etmişdir ( Avropa Komissiyası "Dafne-III" proqramı). "Dafne" proqramının prinsipləri hazırda "Hüquqlar, bərabərlik və vətəndaşlıq proqramı: 2014-2020" adlı yeni proqrama (Avropa Komissiyası 2015a) daxil edilmişdir, həmin proqramın istiqamətlərindən biri "Analitik fəaliyyətlər"i (araşdırmalar, məlumatların toplanması, ümumi metodologiyaların hazırlanması, indikatorlar, sorğular, rəhbər vəsaitlərin hazırlanması) əhatə edir.

Bu, perspektivli proqram hesab edilə bilər, belə ki, bu proqram sayəsində praktik yönümlü innovativ transmilli maliyyələşdirmə proqramından irəli gələn müvafiq araşdırmalar aparılmışdır.

### Danimarkanın tədqiqatlara dəstək üçün reyestrləri

Danimarka qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı geniş bir tədqiqat proqramı üçün lazım olan sorğu statistikasını və inzibati statistikanı hazırlamışdır (yuxarıda inzibati statistikaya aid bölmədə qeyd edildiyi kimi

(Tigesen və Kyer Ersböll 2011). Danimarka zorakılıq qurbanı olmuş insanları əhali arasında sorğu keçirməklə müəyyənləşdirə və daha sonra sorğunun məlumatlarını cinayət qurbanlarına yardım xidmətlərindən və xəstəxanaların və sığınacaqların xidmətlərindən istifadə etmiş şəxslərin, habelə ölüm hallarının səbəblərinin inzibati statistikasında qeydə alınmış zorakılıq qurbanlarına aid məlumatlarla əlaqələndirə bilir. Məlumatlar bütün sistemlərdə eyni fərdi identifikasiya nömrəsindən istifadə edilməklə bir-biri ilə əlaqələndirilir. Beləliklə, Sağlamlıq məsələləri ilə bağlı milli sorğulardan (NHİS) əldə edilən məlumatları inzibati mənbələrdən əldə edilən zorakılığa məruz qalma ilə bağlı məlumatlarla əlaqələndirmək mümkündür, belə ki, həm sorğuda iştirak edən respondentlər, həm də dövlət xidmətlərinin istifadəçiləri öz fərdi identifikasiya nömrələri ilə müəyyənləşdirilirlər. Eyni şəxs barəsində olan sorğu məlumatları ilə inzibati statistika məlumatlarını əlaqələndirməklə qadınlara qarşı zorakılığın və məişət zorakılığının sağlamlıq və cinayət ədliyyəsi üçün doğurduğu nəticələrlə bağlı araşdırmalar aparmaq mümkündür.

2004-cü ildən bəri qadınlara qarşı zorakılıq barədə müfəssəl milli məlumat bazasına bir sıra mənbələrdən əldə edilmiş məlumatlar daxil edilmişdir, buraya milli reyestrlərdən əldə edilən inzibati statistika məlumatları və 2005-2010-cu illərdə keçirilmiş Sağlamlıq məsələləri ilə bağlı milli sorğulardan əldə edilmiş statistik məlumatlar daxildir (Helveq-Larsen 2010). Beləliklə, milli reyestrlərdəki sağlamlıq, cinayətkarlıq və sosial məsələlər barədə məlumatları sağlamlıqla bağlı aparılmış milli sorğular nəticəsində fərdi səviyyədə əldə edilmiş məlumatlarla birləşdirmək mümkündür, bunun üçün Danimarkada daimi yaşayış yeri olan hər bir şəxsə verilən unikal fərdi identifikasiya nömrəsindən istifadə edilir. "Fərdi məlumatların emalı haqqında" Danimarka Aktı statistik və elmi məqsədlər üçün məlumatlara çıxış əldə edilməsini tənzimləyir və məlumat subyektləri üçün tam anonimliyi təmin edir.

Qurbanların statistikası (POL-SAS sistemi) qurbanın və hüquqpozanın sosial profilini qiymətləndirmək üçün digər reyestrlərin məlumatları ilə birləşdirilə bilər. Sorğu zamanı barəsində məlumat verilən və qurbanın xəstəxanaya və (və ya) polisə müraciət etməsinə səbəb olan zorakılıq hadisələrinin faiz göstəricisini hesablamaq mümkündür. Cinayətkarlığın statistikası Milli Pasiyent Reyestrindəki məlumatlarla birləşdirildikdə qurbanların müəyyən bir dövrdə polisə və ya xəstəxanaya neçə dəfə müraciət etdiyini müəyyənləşdirmək və beləliklə səhiyyə və (və ya) ədliyyə sistemlərinə müraciət etmiş konkret zorakılıq qurbanlarının sayını hesablamaq mümkün olur. Bu tədqiqat infrastrukturu araşdırmalar barəsində bir sıra nəşrlərin buraxılmasına şərait yaratmışdır (Kruze və başqaları 2010).

# Qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair məlumatların toplanmasının və tədqiqatların əlaqələndirilməsi

Məlumatların toplanmasının və tədqiqatların inkişaf etdirilməsi əlaqələndirmə tələb edir ki, bu da siyasətin hazırlanmasına dəstək üçün potensialdan tam istifadə edilməsinə imkan verir. Konvensiyada milli əlaqələndirici orqanın zəruriliyi müəyyən edilir (10-cu maddə) və qeyd edilir ki, bu sahədəki işlərə yardım üçün 11-ci maddəyə uyğun olaraq toplanan məlumatlar GREVIO-ya təqdim edilməlidir (66-cı maddə). Hazırda koordinasiyanın asanlaşdırılması üçün digər müvafiq mexanizmlər də hazırlanır, o cümlədən BMT və Aİ-nin qurumları tərəfindən anlayışların və beynəlxalq səviyyədə müqayisə edilə bilən təsnifat sistemlərinin və indikatorların hazırlanması üçün iş aparılır.

## Rəsmi əlaqələndirici orqanlar

İstanbul Konvensiyasının 10-cu maddəsi 11-ci maddəyə əsasən toplanan məlumatların işlənməsi üçün milli əlaqələndirici orqanların olmasını tələb edir. Bu, iştirakçı tərəflərdən tələb edir ki, "qadınlara qarşı zorakılığın bütün formalarının qarşısının alınması və onlarla mübarizə sahəsindəki siyasət və tədbirlərin əlaqələndirilməsi, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi üçün məsul olan" və "11-ci maddədə göstərilən məlumatların toplanmasını əlaqələndirən, onun nəticələrini təhlil edən və yayan" "bir və ya bir neçə rəsmi orqan təyin etsinlər və ya yaratsınlar". Bundan əlavə, bu rəsmi əlaqələndirici orqanlar "digər tərəflərdəki müvafiq orqanlarla birbaşa əlaqə saxlamaq və onlarla əlaqələri genişləndirmək imkanına malik olmalıdırlar".

Bu əlaqələndirici orqanlar rəsmi dövlət orqanı olmalıdır, onlar ya yeni səlahiyyətləndirilmiş mövcud orqanlardan hər hansı biri olmalı, ya da yeni yaradılmış orqan olmalıdır. Mövcud orqanlara misal olaraq "qadınlar barəsində zorakılığa qarşı mübarizə üzrə müşahidə mərkəzlərini", nazirliklərarası koordinasiya strukturlarını və ya siyasətin hazırlanması üzrə mandata sahib olan ekspert qurumlarını (məsələn, tədqiqat institutu və ya milli statistika institutu) göstərmək olar. Bu, bir sıra müxtəlif yanaşmaların mümkün olduğunu göstərir. Konvensiya bu orqanların digər iştirakçı tərəflərdəki analoji orqanlarla birbaşa əlaqə qurmasına birmənalı olaraq icazə verir. Onlar digər iştirakçı tərəflərdəki analoji orqanlarla "işgüzar münasibətlər qura" və bu münasibətlərin təkcə "mühüm qarşılıqlı məhsuldar fəaliyyətə" deyil, həm də "praktiki fəaliyyətlərin daha da uzlaşdırılmasına gətirib çıxaracağına" ümid bəsləyə bilərlər (İstanbul Konvensiyasına dair İzahedici məruzə, 73-cü bənd).

Aİ səviyyəsində qadınlara qarşı zorakılığa dair məlumatların toplanması, təhlili və yayılması üzrə əməkdaşlığı inkişaf etdirə biləcək üç orqan var; bunlar Avropa Gender Bərabərliyi İnstitutu (AGBİ), Avropa İttifaqının Əsas Hüquqlar üzrə Agentliyi (FRA) və Avrostatdır. Məsələn, Aİ daxilində Qadınlar və kişilər üçün bərabər imkanlar üzrə Məşvərət Komitəsi bu potensialı İstanbul Konvensiyasının tələblərinə uyğun surətdə inkişaf etdirmək barədə təkliflər vermiş Avropa Komissiyası Məşvərət Komitəsi 2014) və qeyd etmişdir ki, bunun üçün aşağıdakı vasitələrdən istifadə etmək olar: qadınlar barəsində zorakılığa qarşı mübarizə üzrə Aİ strategiyasının qəbul edilməsi; qadınlara qarşı zorakılıq məsələləri üzrə Aİ koordinatoru vəzifəsinin təsis edilməsi və milli dövlət orqanlarını təmsil edən şəbəkə tərəfindən bu koordinatora dəstəyin göstərilməsi; irəliləyişləri izləmək üçün məcburi hüquqi qüvvəyə malik sənədlərin üzv dövlətlər tərəfindən icra edilməsi barədə məlumatların bir yerə toplanması; standartlaşdırılmış və uzlaşdırılmış inzibati və sorğu məlumatlarının toplanması; standartların, indikatorların, metodların və rəhbər prinsiplərin hazırlanması; qadınlara qarşı zorakılıq məsələlərinə dair tədqiqatlar üçün maliyyələşdirmənin təmin edilməsi; və qadınlara qarşı zorakılığa dair məlumatların toplanması işinin yaxşılaşdırılması üçün yol xəritəsinin hazırlanması. Amma bunlar, əlbəttə ki, Konvensiyanın iştirakçı tərəfləri arasında yalnız Aİ üzvü olan dövlətlərə aiddir.

Rəsmi əlaqələndirici orqanlar müəyyən mexanizmlər vasitəsilə bu sahədə fəaliyyətlərə yardım göstərə bilərlər. Təklif olunan mexanizmlərə aşağıdakılar daxildir:

- inzibati və sorğu məlumatlarının toplanmasında və təhlilində İstanbul Konvensiyasında müəyyən edilmiş anlayışların tətbiqi barədə rəhbər vəsaitlərin buraxılması;

- inzibati və sorğu məlumatlarının toplanması və təhlili üçün istifadə ediləcək metodologiyaya dair rəhbər vəsaitlərin buraxılması;
- qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı hərtərəfli tədqiqat proqramlarının hazırlanmasına və maliyyələşdirilməsinə dəstəyin göstərilməsi;
- məlumatların toplanması və təhlilinin keyfiyyətinin və uzlaşdırılmasının yaxşılaşdırılması üçün xüsusi ekspert qrupları və şəbəkələri də daxil olmaqla maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təşkilatlarının və universitetlərin, eləcə də təsis edilmiş dövlət qurumlarının səfərbər edilməsinə və koordinasiyasına dəstəyin göstərilməsi;
- məlumatlılığın artırılması, demokratik xarakterli töhfələrin verilməsi və nəticələrin istər konkret auditoriya, istərsə də daha geniş auditoriya arasında yayılması məqsədilə geniş ictimaiyyət arasında müzakirələrin stimullaşdırılması.

## Avropa Şurası tərəfindən aparılan monitorinq

### İstanbul Konvensiyasının həyata keçirilməsinin monitorinqi

Konvensiyanın 11-ci maddəsinin 3-cü bəndi "toplanmış məlumatların" monitorinq aparan, 66-cı maddədə göstərilən "müstəqil ekspertlər qrupuna" (GREVIO – Qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı fəaliyyət üzrə ekspertlər qrupu) verilməsini tələb edir. GREVIO hər bir qiymətləndirmə raundu üçün sorğu anketini tərtib edərkən iştirakçı tərəflərin mövcud məlumatların toplanması və tədqiqatların aparılması üzrə fəaliyyətlərini lazımi qaydada nəzərə alacaq. GREVIO 2015-ci ilin sonunadək öz iş metodlarını müəyyən etməli idi.

### Siyasətdə irəliləyişlərin monitorinqi

Avropa Şurası (2014: 6) ona üzv olan dövlətlərdə qadınlara qarşı zorakılıqla bağlı siyasət sahəsindəki irəliləyişlərin müntəzəm monitorinqi çərçivəsində həmin irəliləyişləri qiymətləndirmək məqsədi ilə indikatorların hazırlanması üçün zəmin yaratmışdır.

Nazirlər Komitəsinin üzv dövlətlərə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyəsi qadınlar barəsində aşağıdakılar daxil olmaqla müxtəlif zorakılıq formalarına qarşı mübarizə tədbirlərinin siyahısını özündə ehtiva edir: zorlama və cinsi zorakılıq, ailədaxili və ya məişət zorakılığı, cinsi qısnama, "qadın sünnəti", münaqişə şəraitində və münaqişədən sonrakı şəraitdə

zorakılıq, institusional mühitdə zorakılıq, reproduktiv seçim azadlığına hörmət edilməməsi (məcburi abort və ya məcburi sterilizasiya), namus naminə qətllər, məcburi və erkən nikahlar.

2005-ci ildən bəri Avropa Şurası üzv dövlətlərin bu tövsiyəni nə dərəcədə yerinə yetirdiyinin monitorinqini aparır. Standartlaşdırılmış sorğu anketlərindəki suallara Avropa Şurasına üzv dövlətlərin könüllü cavabları əsasında qadınlar barəsində zorakılığa qarşı mübarizəyə dair qanunvericilikdə, siyasətdə və xidmətlərdə irəliləyişlər qiymətləndirilmişdir. 2014-cü ilin martında dərc olunmuş analitik hesabatda açıqlanan monitorinqin dördüncü mərhələsinin nəticələri qadınlara qarşı zorakılığa dair məlumatların toplanması və tədqiqatların aparılması daxil olmaqla bir neçə sahədə irəliləyişlərin kəmiyyət baxımından nəzərdən keçirilməsinə imkan verir. Zaman keçdikcə baş verən irəliləyişlərin analitik müqayisəsi və hesabatın geniş coğrafi əhatə dairəsi onu unikal məlumat mənbəyinə çevirir.

Son monitorinq həm inzibati statistik məlumatların toplanmasında, həm də zorakılıq hallarının bütövlükdə əhali arasında yayılma miqyası ilə bağlı sorğuların aparılmasında ümumən artım olduğunu göstərir. Bununla belə, məlumatların müqayisəlilik səviyyəsi hələ də aşağıdır. Barəsində xəbər verilən hüquqpozmalar haqqında polis tərəfindən məlumat toplanmasının və həmin məlumatların cins və münasibət üzrə bölgüsünün və yaxud məişət zorakılığı barədə məlumat toplanmasının müxtəlif metodları mövcuddur. Bəzi üzv dövlətlər cinayətkarlığın ümumi statistikasından məişət zorakılığı barədə məlumatları və statistikanı çıxara bilsələr də, digərləri məişət zorakılığına dair fərqli hesabatlılıq sistemləri yaratmışlar (Niderland, Polşa və ya Lüksemburq kimi). Bundan başqa, tədqiqatlar çərçivəsində aparılan bəzi sorğular qadınlara qarşı geniş miqyaslı zorakılıq formalarını əhatə etdiyi halda, digərləri yalnız məişət zorakılığı məsələsinə yönəlmişdir.

Bundan əlavə, 2008-ci ildə Avropa Şurası "Şuraya üzv ölkələrdə məişət zorakılığına dair inzibati məlumatların toplanması" mövzusunda tədqiqatın nəticələrini dərc etmişdir. Tədqiqatın məqsədi üzv dövlətlərin qadınlara qarşı məişət zorakılığına dair topladığı inzibati məlumatların növünü qiymətləndirmək; mövcud təcrübələrdən kənar inzibati məlumatların toplanmasına dair tövsiyələri özündə əks etdirən nümunəvi yanaşma hazırlamaq; hansı səviyyəyə aid dövlət orqanlarının və konkret olaraq hansı dövlət və ya özəl qurumların hansı növ məlumatları toplamalı olduğu barədə, həmçinin hələ də də məlumat toplamayan qurumlarda inzibati məlumatlar sisteminin necə qurulmalı olduğu barədə təlimatlar verməkdir. Tədqiqat hələ də məlumat toplamayan qurumlarda inzibati məlumatlar sisteminin necə qurulmalı olduğu barədə tövsiyələri (səh.

21-22), habelə inzibati məlumatların toplanmasına dair nümunəvi yanaşmanı (səh. 23-24) özündə ehtiva edir.

## Müqayisəli beynəlxalq təhlilin aparılması

Müqayisəli təhlil vahid bir meyara istinad etməklə fəaliyyətlərin koordinasiyasına kömək edir. Beynəlxalq və regional insan hüquqları qurumları, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT-nin Statistika Komissiyası, BMT-nin Qadınların Vəziyyətinin Yaxşılaşdırılması Bölməsi (indiki "BMT-Qadınlar" strukturuna daxil edilmişdir), BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi, Ümumdünya Səhiyyə Təşkilatı), Avropa Şurası və Aİ qadınlara qarşı zorakılıq anlayışına və qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə ilə bağlı irəliləyişlərin qiymətləndirilməsinə dair bir sıra təkliflər irəli sürmüşlər.

BMT qadınlara qarşı zorakılıq anlayışının müəyyən olunmasında mühüm rol oynamışdır və onun orqanları və digər beynəlxalq qurumlar öz işlərində həmin anlayışı rəhbər tuturlar. Birləşmiş Millətlər Təşkilatının (1993) Qadınlara qarşı zorakılığın ləğvi haqqında Bəyannaməsində qadınlara qarşı zorakılığa belə tərif verilir: "ictimai və ya şəxsi həyatda baş verməsindən asılı olmayaraq qadınlara fiziki, cinsi və ya psixoloji zərər, yaxud iztirab yetirən və ya yetirə bilən gender əsaslı bütün zorakılıq əməlləri, o cümlədən bu əməllərin törədiləcəyi ilə hədələmə, habelə məcbur etmə və ya əsassız şəkildə azadlıqdan məhrum etmə".

BMT tərəfindən 1993-cü ildə hazırlanmış bu tərif 2011-ci il tarixli İstanbul Konvensiyasında rəhbər tutulmuşdur. BMT və onun orqanları əsas diqqətlərini qadınlara qarşı zorakılığa yönəltdikləri halda, Avropa Şurası əlavə olaraq məişət zorakılığına da xüsusi diqqət yetirir. İstanbul Konvensiyası iştirakçı tərəflərdən tələb edir ki, onların bu sahədəki fəaliyyətləri qadınlara qarşı zorakılığın bütün formalarını əhatə etsin, qadınlara və qızlara qarşı məişət zorakılığının bütünlüklə əhatə edilməsi isə könüllü öhdəlik kimi müəyyən edilir (bu sahədə fəaliyyət təşviq edilir). Milli və beynəlxalq səviyyədə müqayisəli təhlil üçün indikatorlar İstanbul Konvensiyasının əhatə etdiyi qadınlara qarşı zorakılıq və məişət zorakılığının bütün formalarını əhatə etməlidir.

Avropa Şurasının bütün üzvlərini özündə birləşdirən BMT çərçivəsində məlumatların toplanması, təhlili və yayılması üzrə əməkdaşlığın inkişafı prosesi bir sıra fəaliyyətləri və qurumları, o cümlədən aşağıdakıları əhatə etmişdir: müxtəlif elm adamlarından, QHT-lərdən və hökumət nümayəndələrindən ibarət ekspert qruplarının yaradılması; məlumatların toplanması və təhlili metodlarının uzlaşdırılmasını asanlaşdırmaq və təşviq etmək üçün rəhbər

prinsiplərin və təlimatların hazırlanması; BMT-nin Statistika Komissiyası tərəfindən razılaşdırılmış standartların yaradılması və təşviqi; BMT Baş katibinin, və "BMT-Qadınlar" strukturunun, habelə BMT-nin Avropa İqtisadi Komissiyası kimi regional qurumlarının əməkdaşlığa cəlb olunması. Fəaliyyətlərin məzmunu İstanbul Konvensiyasının tələbləri ilə tam uyğun olmasa da, tətbiq olunan mexanizmlər mümkün olan müxtəlif koordinasiya növlərinə dair mühüm nümunələrdir.

Aİ-yə sədrlik edən ölkələr Aİ-nin Pekin Fəaliyyət Platforması üzrə öhdəliklərini yerinə yetirməsi kontekstində qadınlara qarşı zorakılığın qiymətləndirilməsinin indikatorlarını təklif etmişlər, həmin indikatorlar məişət zorakılığı, iş yerində cinsi qısnama və qadınlara qarşı zorakılığa məruz qalanlara dəstək xidmətlərinin göstərilməsi ilə əlaqədardır (Avropa Komissiyası 2015b). Avropa Gender Bərabərliyi İnstitutu Aİ-də gender əsaslı zorakılığa dair inzibati məlumat mənbələri və statistik məhsullar bazasını təqdim etmişdir (AGBİ 2014b). AGBİ 2015-ci ildə dərc edilmiş Gender Bərabərliyi İndeksinə ilk dəfə qadınlara qarşı zorakılıq məsələsini daxil etmişdir.[8] BMT-nin Statistika Komissiyası Sədrinin Dostları Qrupu qadınlara qarşı zorakılığın miqyasını qiymətləndirmək üçün doqquz əsas indikatorun istifadəsini tövsiyə etmişdir (BMT-nin Statistika Komissiyası, 2010: 19). Qadınlara qarşı zorakılığa dair qanunvericilik və əlaqədar siyasətlər üçün nümunəvi baza BMT-nin Qadınların Vəziyyətinin Yaxşılaşdırılması Bölməsi tərəfindən dərc edilmişdir (BMT-nin Qadınların Vəziyyətinin Yaxşılaşdırılması Bölməsi 2010). Arzuolunan qanunvericiliyin və əlaqədar siyasətlərin siyahısı (o cümlədən onların həyata keçirilməsi və qurbanların müdafiəsi məsələsi) orada təqdim edilir, bu siyahı indikatorların siyahısı olmasa da, qanunvericilik və əlaqədar siyasət sahəsində irəliləyişlərin indikatorlarının hazırlanması üçün istifadə edilə bilər.

Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər tərəfindən razılaşdırılan 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi kontekstində 17 dayanıqlı inkişaf məqsədi (DİM) qəbul edilmişdir ki, bunlardan da biri "gender bərabərliyinə və bütün qadınların və qızların səlahiyyətləndirilməsinə nail olmaqdır" (DİM 5). Bu məqsəd çərçivəsində təsdiq edilən hədəflərdən biri "dövlət və özəl sahələrdə bütün qadınlara və qızlara qarşı zorakılığın bütün formalarının ləğv olunmasıdır" (5.2). Dayanıqlı İnkişaf Məqsədləri 2015-ci ilin sentyabr ayının sonunda qəbul edildikdən sonra 2016-cı ildə BMT-nin Statistika Şöbəsi tərəfindən həmin məqsədlərə nail olunması istiqamətində irəliləyişlərin monitorinqi üçün

8. Avropa Gender Bərabərliyi İnstitutu (2015). *Gender Bərabərliyi İndeksi,* http://eige.europa.eu/sites/default/files/documents/mh0415169enn.pdf.

bir sıra indikatorlar hazırlanmışdır. Bu indikatorlar, yəqin ki, qadınlara qarşı zorakılığın aradan qaldırılması istiqamətində irəliləyişlərin qiymətləndirilməsi üçün meyarları özündə ehtiva edəcək və qlobal səviyyədə mühüm bir etalon olacaqdır.[9]

Statistik Məqsədlər üçün Cinayətlərin Beynəlxalq Təsnifatı (ICCS) BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəhbərliyi altında hazırlanan və BMT-nin Statistika Komissiyası tərəfindən dəstəklənən yeni bir cinayət təsnifatıdır (UNODC 2015). Cinayətlərin təsnifatı üçün ümumi meyarları müəyyən edən həmin sənəd ölkələr arasında cinayətkarlığın müqayisəli təhlilinin aparılması üçün nəzərdə tutulmuşdur. Bu təsnifat qadınlara qarşı zorakılıq və məişət zorakılığı barədə məlumatların toplanması üçün əhəmiyyət daşıyır və oraya daxil edilən cinayətlər ya "şəxsə zərər yetirilməsinə səbəb olan və ya zərər yetirmə niyyəti ilə edilən hərəkətlər", ya da "cinsi xarakterli zərərli hərəkətlər" kateqoriyasına aid edilə bilər. Cinayətlərin fərqli hüquqi anlayışları ilə əlaqədar çətinliklərdən yaxa qurtarmaq üçün ICCS-də təsnifləşdirmə hüquqi kateqoriyaya deyil, davranışa əsaslanır. Orada deyilir ki, kateqoriyalar arasında fərq qoymaq üçün istifadə edilən prioritetlər siyasət prioritetləri üçün ən aktual olanlardır. ICCS vahid beynəlxalq təsnifat yaratmaqla ölkələr arasında cinayətkarlığın müqayisəli təhlilini asanlaşdırmaq məqsədi daşıyır. ICCS-də yer alan təsnifat "cinayət mühakimə icraatı prosesinin müxtəlif mərhələlərində (polis araşdırması, cinayət təqibi, ittiham hökmünün çıxarılması, azadlıqdan məhrum edilmə), eləcə də cinayət qurbanına çevrilmə ilə əlaqədar sorğuların gedişində toplanan bütün cinayət məlumatlarına şamil edilmək" üçün nəzərdə tutulur (səh. 7). Təsnifat dörd səviyyədən ibarətdir, birinci səviyyədə 11 əsas bölmə vardır, bunlardan üçü qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə əlaqədardır: "1. Ölümə səbəb olan və ya ölümə səbəb olma niyyəti ilə edilən hərəkətlər; 2. Şəxsə zərər yetirilməsinə səbəb olan və ya zərər yetirmə niyyəti ilə edilən hərəkətlər; 3. Cinsi xarakterli zərərli hərəkətlər və əlavə üç səviyyə üzrə bölgü" (səh.13). Beləliklə, bu, qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə əlaqədar kateqoriyaları özündə ehtiva edən vahid ölçü sisteminə doğru atılmış ümidverici bir addım hesab edilə bilər. Lakin ICCS-in 1.0 versiyası qadınlara qarşı zorakılığı yetərincə əhatə etmir, belə ki, həmin versiyada, bir qayda olaraq, nə qurbanın cinsi, nə də məişət zorakılığı öz əksini tapıb, çünki bu versiya, bir qayda olaraq, qurban ilə zorakılıq törədən arasındakı münasibətləri əhatə etmir – bunlar sadəcə olaraq fakültativ parametrlər kimi nəzərdə tutulub. ICCS-in 1.0

9. Dayanıqlı inkişaf prosesi barədə Birləşmiş Millətlər Təşkilatının yenilənən məlumatlarını buradan əldə edə bilərsiniz: https://sustainabledevelopment.un.org/post2015/transformingourworld.

versiyasının əhatə dairəsi məhduddur, çünki kod nömrələrinin şamil olunduğu dörd əsas təsnifat səviyyəsi çərçivəsində qadınlara qarşı zorakılığın və ya məişət zorakılığının təsnifat üsulları bu versiyaya daxil edilməyib. Nə qurbanın cinsi, nə də qurban ilə zorakılıq törədən arasındakı münasibət nömrələnmiş əsas təsnifat parametlərinə daxil edilib. Onların ICCS-də tamamilə olmadığını söyləmək olmaz, amma onlar əsas cinayət kodlarının bir hissəsi kimi deyil, fakultativ "parametrlər" kimi götürülüb və bu səbəbdən onlar barədə məlumatlar əlavə informasiyalar kimi toplana bilər. Beləliklə, bu təsnifat qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair məlumatların toplanması üçün potensial olaraq faydalı olsa da, yalnız həmin əlavə məlumatlar toplandığı təqdirdə İstanbul Konvensiyasının iştirakçısı olan tərəflərin məlumat toplama barədə tələblərə riayət etməsinə yardımçı ola bilər. Bunun üçün təsnifatda mövcud olan kateqoriyalarda qurbanın cinsinə və qurban ilə zorakılıq törədən arasındakı münasibətlərə görə bölgü aparmaqla təsnifata əlavə kodlar daxil edilə bilər. Yaxud alternativ variant olaraq elə etmək olar ki, qurbanın cinsini və qurban ilə zorakılıq törədən arasındakı münasibətləri bildirən parametlərin istifadəsi könüllü deyil, məcburi olsun. Beləliklə, gender aspektinin təsnifata daxil edilməsi ICCS-i məlumatların toplanmasının koordinasiyasına kömək edən alət halına gətirə bilər. ICCS-in 1.0 versiyası qəbul edilsə də, gələcək versiyalarda islahat aparılaraq dəyişikliklər edilə bilər.

Qadınlara qarşı zorakılıq məsələsi yalnız qadınlara qarşı zorakılığın və məişət zorakılığının adətən baş verdiyi xüsusi bir sahə üçün deyil, bir çox siyasət sahələri üçün aktuallıq kəsb edir. Qadınlara qarşı zorakılığa və məişət zorakılığına son qoyulması bir çox siyasət sahələrindəki subyektlərin, o cümlədən cinayət ədliyyəsi sistemi və səhiyyə xidmətlərinin, eləcə də qurbanlar üçün ixtisaslaşdırılmış xidmətlərin səfərbər olunmasını tələb edir. Onların sırasına, məsələn, cinsi qısnama probleminin mövcud olduğu məşğulluq, bərabərliyi və gender stereotiplərinin aradan qaldırılmasını təşviq etməli olan təhsil, habelə qadınlara qarşı zorakılığa yanaşmalara etiraz edilməsində və yaxud bu yanaşmaların möhkəmləndirilməsində mühüm rola malik olan media sahəsindəki subyektlər daxildir. Qurbanların məruz qaldığı zərərin azaldılması və zorakılığın qarşısının alınmasına yönələn səylərin uğurlu olması üçün bir sıra xidmətlər arasında əməkdaşlıq və koordinasiyanın olması zəruridir. Hazırda bu siyasət sahələrinin hər birinin qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə əlaqədar fərqli ölçü vahidləri sistemi vardır. Eyni vaxtda bütün bu siyasət sahələri üçün aktuallıq kəsb edən vahid bir ölçü çərçivəsinə keçmək istiqamətində hərəkət etməyin vaxtıdır. Konseptual olaraq bu prosesə "gündəlik fəaliyyət" kimi baxmaq olar. O, hazırlanmasında Avropa Şurasının mühüm rol oynadığı "gender amilinin nəzərə alınması" konsepsiyasına əsaslanır. O,

bu konsepsiyanı gender məsələlərinə deyil, əsas siyasət sahələrində istifadə edilməli olan "qadınlara qarşı zorakılıq və məişət zorakılığı" məsələlərinə tətbiq edərək inkişaf etdirir. Gender amilinin nəzərə alınması konsepsiyasında olduğu kimi, bu proses həm "problem yaradan amil" (indiki halda "qadınlara qarşı zorakılıq və məişət zorakılığı"), həm də "gündəlik fəaliyyət" (cinayət ədliyyəsi, səhiyyə sistemləri və məşğulluq sistemləri daxil olmaqla) baxımından qarşılıqlı uyğunlaşdırmaları özündə əhatə edir.

# Nəticələr

İnzibati və sorğu məlumatlarının toplanmasının və tədqiqatların məqsədi qadınlara qarşı zorakılığa və məişət zorakılığına qarşı mübarizə üçün zəruri olan məlumat bazasını yaratmaq və beləliklə İstanbul Konvensiyasının həyata keçirilməsinə dəstək olmaqdır.

Zorakılıq sahəsində baş verən dəyişikliklərin ölçü meyarları və indikatorları bir-birinə münasibətdə kifayət qədər ziddiyyətsiz və uzlaşdırılmış olarsa, məlumat bazası daha səmərəli olar. Həm sorğularda, həm də müxtəlif inzibati mənbələrdə zorakılığın miqyasını və dərəcəsini ölçmək üçün eyni kateqoriyalardan istifadə edilməsi məlumatların uzlaşması və bir-birini tamamlaması baxımından faydalıdır. Bu uzlaşmanın həm müəyyən bir ölkə daxilində, həm də ölkələr arasında olması vacibdir.

Məqsəd qadınlara qarşı zorakılığı və məişət zorakılığını əhatə edən və müvafiq kateqoriyalara bölünən vahid bir ölçü sisteminin yaradılmasından ibarətdir. Bu, zorakılıq sahəsində baş verən dəyişikliklərin və dövlət xidmətlərinin səmərəliliyinin qiymətləndirilməsinin uzlaşdırılmasını təmin edəcək və qiymətləndirmədə dəqiqliyin artmasına imkan yaradacaq.

Ölçmə təcrübələrinin ziddiyyətsizliyinə və uzlaşdırılmasına nail olmanın çətin bir vəzifə olduğu qəbul edilir. Mövcud olan bir sıra ölçmə metodları fərqli siyasət sahələri ilə əlaqədar olaraq nisbətən ayrı-ayrılıqda inkişaf etmişdir ki, bunun da nəticəsində onlar müqayisə oluna bilməyən sistemlərdə tətbiq edilir. Bu siyasət sahələrindəki bəzi metodlar bir sıra ixtisaslaşmış qurumlarda dərin kök salmışdır.

Beləliklə, problem təkcə müəyyən siyasət sahələrində mövcud olan ölçü sistemlərində gender aspektinin nəzərə alınmasından ibarət deyil, həm də müxtəlif siyasət sahələrinin ölçü sistemlərinin uzlaşdırılmasından ibarətdir. Məsələn, problem təkcə cinayətkarlıq statistikasına zorakılığın gender xarakterinin daxil edilməsini təmin etməkdən ibarət deyil, həm də cinayətkarlıq statistikasının səhiyyə statistikası ilə müəyyən mənada uzlaşdırılmasını təmin etməkdən ibarətdir.

Bu ölçmə metodlarının bir-birinə münasibətdə daha çox uzlaşdırılması istiqamətində hərəkət prosesi xeyli sayda düzəlişlərin edilməsini tələb edəcək ki, bunun da müəyyən qədər vaxt apara biləcəyini gözləmək olar.

İstanbul Konvensiyasının 11-ci maddəsi konvensiyanın iştirakçısı olan tərəflərdən inzibati məlumatların toplanmasını, tədqiqatların aparılmasını və sorğu məlumatlarının toplanmasını tələb edir. Bu, qadınlar barəsində zorakılığa və məişət zorakılığına qarşı mübarizəyə yönələn siyasət dəyişikliklərini təhlil etmək və qiymətləndirmək üçün zəruridir. Məlumatlara dair bu tələblərin yerinə yetirilməsinə ciddi çağırışlar var. Lakin bəzi ümidverici təcrübələr də mövcuddur ki, bu çətinliklərin öhdəsindən gəlmək üçün zəruri olan ardıcıl proseslərdə onlardan getdikcə daha çox istifadə olunur. Önəmli olan budur ki, konvensiyanın iştirakçısı olan tərəflər statistik məlumatların, sorğu məlumatlarının toplanmasına və tədqiqatların aparılmasına öz töhfələrini versinlər və ümumi bir ölçü çərçivəsinin yaradılması üzərində çalışsınlar. Bu elə bir sistem olacaq ki, burada onların töhfələri ən yaxşı şəkildə istifadə edilə bilər.

# Yaddaş siyahısı

İstanbul Konvensiyasının 11-ci maddəsi konvensiyanın iştirakçısı olan tərəflərdən inzibati məlumatların toplanmasını, tədqiqatların aparılmasını və sorğu məlumatlarının toplanması tələb edir. Aşağıdakı yaddaş siyahısı bu tələblərin yerinə yetirilməsində yardımçı ola bilər.

- ❑ Qurbanlara kömək edən və zorakılığın qarşısını alan, dövlət tərəfindən maliyyələşdirilən bütün qurumlar tərəfindən məlumatlar toplanılırmı?
  - o hüquq mühafizə orqanları (həm cinayət hüququ, həm də müvafiq mülki hüquq sahəsindəki orqanlar: polis, prokurorluq, məhkəmələr, ədliyyə orqanları və penitensiar orqanlar)
  - o səhiyyə xidmətləri (məsələn, həkimlər, təcili və təxirəsalınmaz yardım xidmətləri, xəstəxanalar)
  - o sosial xidmətlər, sosial təminat orqanları və qurbanlarla iş üzrə ixtisaslaşdırılmış xidmətlər (dövlət qurumları və QHT-lər)
- ❑ Məlumatlar sorğulardan istifadə edilməklə toplanılır?
  - o daha geniş əhatəli sorğuların, məsələn, cinayətkarlığa və ya sağlamlığa aid sorğuların tərkibinə qadınlara qarşı zorakılıq barədə modulların daxil edilməsi imkanları araşdırılıbmı?
- ❑ Məlumatlar toplanılarkən eyni kateqoriyalardan istifadə edilirmi?
  - o zorakılıq formalarının tərifləri (konvensiyada göstərilən hüquqi kateqoriyalar)
  - o ölçü vahidləri qurbanları, hadisələri və hüquqpozanları əhatə edirmi (bu kateqoriyaların yalnız birini deyil, hamısını)
  - o cins, yaş, zorakılığın növü, qurban ilə zorakılığı törədən arasındakı münasibət və coğrafi məkan üzrə bölgünün məcburi qaydada aparılması
- ❑ Məlumatlar müntəzəm olaraq toplanılırmı?
  - o inzibati məlumatlar
  - o sorğu məlumatları
- ❑ Qadınlara qarşı zorakılığın əsas səbəblərini və nəticələrini araşdıran hər hansı bir maliyyələşdirilən tədqiqat proqramı varmı?

- o onlar "ittiham hökmlərinin sayı" barədə məlumatların əldə edilməsinə yardımçı olurmu?
- ❑ Məlumat və təhlillər ictimaiyyətə təqdim edilirmi?
  - o icmal formasında (indikatorlar daxil olmaqla)
  - o məlumat bazalarında
- ❑ Məlumatların toplanması, təhlili və yayılması məsələlərini əlaqələndirməyə görə cavabdeh olan rəsmi qurum (və ya qurumlar) varmı?

# Avropa Şurasının mühüm sənədləri


Avropa Şurası (2011). Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiya (İstanbul Konvensiyası). Sayt: http://conventions.coe.int/Treaty/EN/Treaties/html/210.htm. və ona dair İzahedici məruzə, sayt: http://conventions.coe.int/Treaty/EN/Reports/Html/210.htm.

Avropa Şurası (2014). *"Avropa Şurasına üzv dövlətlərdə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyə"nin icrasının monitorinqinin dördüncü mərhələsinin nəticələrinin analitik tədqiqi*, Kerol Hagemann-Uayt tərəfindən hazırlanmış hesabat, Avropa Şurasının Gender Bərabərliyi Komissiyası.

*"Avropa Şurasına üzv dövlətlərdə məişət zorakılığı barədə inzibati məlumatların toplanmasına dair"* Avropa Şurasının tədqiqatı (EG-VEW-DC(2008)Study).

Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Avropa Şurasının Konvensiyası (ETS № 108).

Avropa Şurasına üzv dövlətlərdə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyə

# Mənbələr


AGBİ (Avropa Gender Bərabərliyi İnstitutu) (2012). Aİ-yə üzv dövlətlərdə Pekin Fəaliyyət Platformasının tətbiqinin icmalı: Qadınlara qarşı zorakılıq – Qurbanlara dəstək. Avropa İttifaqının Nəşriyyat İdarəsi, Lüksemburq.

AGBİ (Avropa Gender Bərabərliyi İnstitutu) (2014a). Aİ-də qadınlara qarşı gender əsaslı zorakılığa dair inzibati məlumat mənbələri: Hazırkı vəziyyət və tutuşdurula bilən məlumatların toplanması üçün potensial. Sayt: http://eige.europa.eu/sites/default/files/MH0113492ENN_PDF.Web_.pdf, sayta keçid tarixi: 9 dekabr 2015-ci il.

AGBİ (Avropa Gender Bərabərliyi İnstitutu) (2014b). Aİ-də gender əsaslı zorakılığa dair inzibati məlumatların potensialı və cari vəziyyət xəritəsi. Sayt: http://eige.europa.eu/gender-based-violence/administrative-data-sources/about, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

AGBİ (Avropa Gender Bərabərliyi İnstitutu) (2014b). Gender Bərabərliyi İndeksi, http://eige.europa.eu/content/gender-equality-index, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Avropa Komissiyası (2010). Qadınlara qarşı zorakılıq, uşaqlara qarşı zorakılıq və cinsi yönümlü zorakılıq barədə milli qanunvericiliyin standartlaşdırılması üçün imkan, fürsət və tələbatların qiymətləndirilməsi üçün texniki-iqtisadi əsaslandırma. Avropa Komissiyası, Lüksemburq.

Avropa Komissiyası (2015a). Hüquqlar, bərabərlik və vətəndaşlıq proqramı: 2014-2020, http://ec.europa.eu/justice/grants1/programmes-2014-2020/rec/index_en.htm, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Avropa Komissiyası (2015b). Pekin Fəaliyyət Platforması, http://ec.europa.eu/justice/gender-equality/tools/statistics-indicators/platformaction/index_en.htm.

Avropa Komissiyasının "Dafne" proqramının alətlər toplusu. Sayt: http://ec.europa.eu/justice/grants/results/daphne-toolkit/en/daphne-toolkit-%E2%80%93-active-resource-daphne-programme, sayta keçid tarixi 9 dekabr 2015-ci il

Avropa Komissiyası “Dafne-III”. Sayt: http://ec.europa.eu/justice/grants1/programmes-2007-2013/daphne/index_en.htm, sayta keçid tarixi 9 dekabr 2015-ci il

Avropa Komissiyasının Qadınlar və kişilər üçün bərabər imkanlar üzrə Məşvərət Komitəsi (2014).

Avropa Şurası (2005). İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya (CETS № 197).

Avropa Şurası (2006). Qadınlara qarşı zorakılıqla mübarizə: Avropa Şurasına üzv dövlətlərdə həyata keçirilən tədbirlərin və hərəkətlərin analitik tədqiqi, Avropa Şurası, Strasburq.

Avropa Şurası (2007). “Avropa Şurasına üzv dövlətlərdə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyənin səmərəli icrasının analitik tədqiqi”, Kerol Hagemann-Uayt tərəfindən hazırlanmış hesabat.

Avropa Şurası (2008a). Avropa Şurasına üzv dövlətlərdə məişət zorakılığı barədə inzibati məlumatların toplanması. Elina Ruuskanen və Kauko Aromaa tərəfindən hazırlanmış hesabat.

Avropa Şurası (2008b). “Avropa Şurasına üzv dövlətlərdə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyənin icrasının monitorinqinin ikinci mərhələsinin nəticələrinin analitik tədqiqi”, Kerol Hagemann-Uayt tərəfindən hazırlanmış hesabat.

Avropa Şurası (2010). “Avropa Şurasına üzv dövlətlərdə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyənin icrasının monitorinqinin üçüncü mərhələsinin nəticələrinin analitik tədqiqi”, Kerol Hagemann-Uayt tərəfindən hazırlanmış hesabat.

Avropa Şurası (2011a). Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiya (İstanbul Konvensiyası). Sayt: http://conventions.coe.int/Treaty/EN/Treaties/html/210.htm.

Avropa Şurası (2011b). İstanbul Konvensiyasına dair İzahedici məruzə. Sayt: http://conventions.coe.int/Treaty/EN/Reports/Html/210.htm.

Avropa Şurası (2014). “Avropa Şurasına üzv dövlətlərdə qadınların zorakılıqdan müdafiəsinə dair Rec(2002)5 saylı Tövsiyənin icrasının monitorinqinin dördüncü

mərhələsinin nəticələrinin analitik tədqiqi", Kerol Hagemann-Uayt tərəfindən hazırlanmış hesabat, Avropa Şurası, Strasburq

Avropa Şurasının Məlumat Bülleteni (2012). Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası (İstanbul Konvensiyası), Namus naminə törədilən cinayətlər, sayt: https://rm.coe.int/CoERMPublicCommonSearchServices/sso/SSODisplayDCTMContent?documentId=090000168046eabf&ticket=ST-94479-ErdZdRa3t0aFlp7eXp2z-cas, sayta keçid tarixi: 25 yanvar 2016-cı il.

Avropa Şurasının Seminarı (2014). "Qadınların ədalət mühakiməsinə çatımlılığı ilə əlaqədar tədqiqatlardakı boşluqların və cins əlaməti üzrə təsnif olunan məlumatların çatışmazlığının aradan qaldırılması". Sayt: https://www.coe.int/en/web/genderequality, sayta keçid tarixi: 4 dekabr 2015-ci il

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası (1993). Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə. Sayt: http://www.un.org/documents/ga/res/48/a48r104.htm, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Məsələlər üzrə Departamenti (2014). Qadınlara qarşı zorakılığa dair statistikanın hazırlanması üçün rəhbər prinsiplər: Statistik sorğular, BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamenti. Sayt: http://unstats.un.org/unsd/gender/docs/Guidelines_Statistics_VAW.pdf., sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Birləşmiş Millətlər Təşkilatının Qadınların Vəziyyətinin Yaxşılaşdırılması Bölməsi (2010). Qadınlara qarşı zorakılığa aid qanunvericiliyə dair rəhbər vəsait. Sayt: http://www.un.org/womenwatch/daw/vaw/handbook/Handbook%20for%20legislation%20on%20violence%20against%20women.pdf, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyası (2010). Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyası Sədrinin Dostları Qrupunun Qadınlara qarşı zorakılığın statistik indikatorları ilə bağlı toplantısına dair hesabat, 9-11 dekabr 2009-cu il, Aquaskalyentes, Meksika. Sayt: http://www.un.org/womenwatch/daw/vaw/IssuesFocus/Report-of-the-Meeting-of-the-Friends-of-the-Chair-February-2010.pdf, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Danimarka Statistika İdarəsi (2015). Tədqiqat üçün məlumatlar, http://www.dst.dk/en/TilSalg/Forskningsservice#, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

DFID (Beynəlxalq İnkişaf Departamenti) (2015). Qadınlara qarşı zorakılığın qarşısını almaq üçün hansı üsullar işə yarayır. Sayt: https://www.gov.uk/funding-for-what-works-to-prevent-violence-against-women-and-girls, sayta keçid tarixi: 4 dekabr 2015-ci il

FRA (Avropa İttifaqının Əsas hüquqlar üzrə agentliyi) (2014). Qadınlara qarşı zorakılıq: Aİ miqyasında aparılmış sorğu. Sayt: http://fra.europa.eu/en/publication/2014/vaw-survey-main-results, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Gender Bərabərliyi Komissiyası (2016), "Avropa Şurasının Gender bərabərliyi lüğəti", www.coe.int/equality, sayta keçid tarixi: 25 yanvar 2016-cı il

HEUNI (2013). Qadınlara qarşı zorakılığa dair beynəlxalq sorğu. Sayt: http://www.heuni.fi/en/index/researchareas/violenceagainstwomen/internationalviolenceagainstwomensurveyivaws.html, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Karin Helveq-Larsen (2010). "Yaxın münasibətlərdə zorakılıq. Qadınlar və kişilər arasında münasibətlərdə intim partnyor zorakılığının miqyası, xarakteri və inkişafı, o cümlədən ona qarşı mübarizə – 2010", Milli İctimai Səhiyyə İnstitutu və Gender Bərabərliyi Nazirliyi, Kopenhagen: http://www.si-folkesundhed.dk/upload/english_summary.violence_003.pdf və http://www.si-folkesundhed.dk/upload/violence_in_close_relationships,_summary.pdf

Qadınlara qarşı zorakılıq barədə məlumatların toplanmasına dair rəy. Sayt: http://ec.europa.eu/justice/gender-equality/files/opinions_advisory_committee/141126_opinion_data_vaw_en.pdf, sayta keçid tarixi 9 dekabr 2015-ci il

LOKK, ingiliscə səhifəsi: www.lokk.dk/Info/In-English/.

Mari Kruze, Yan Sörensen, Henrik Brönnum-Hanze və Karin Helveq-Larsen (2010). "Reyestr məlumatlarından istifadə etməklə zorakılıq qurbanlarının müəyyənləşdirilməsi", Skandinaviya ictimai səhiyyə jurnalı (Scandinavian Journal of Public Health), 2010, 0: 1-7.

Məişət zorakılığına və gender zorakılığına qarşı mübarizə üzrə müşahidə mərkəzi. Sayt: http://www.poderjudicial.es/cgpj/en/Subjects/Domestic-and-gender-violence/Spanish-Observatory-on-Domestic-Violence, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Milli Statistika İnstitutu (2014). Məişət zorakılığı və gender zorakılığının statistikası: Metodologiya, may 2014-cü il. Sayt: http://www.ine.es/buscar/searchResults.do?searchString=violence+against+women&Menu_botonBu

scador=Search&searchType=DEF_SEARCH&startat=0&L=1, sayta keçid tarixi 9 dekabr 2015-ci il

Norveç Qrantları (2015). Məişət zorakılığı və gender əsaslı zorakılıq, http://eeagrants.org/What-we-do/Programme-areas/Justice-and-home-affairs/Domestic-and-gender-based-violence, sayta keçid tarixi: 9 dekabr 2015-ci il.

ONSa (Milli Statistika İdarəsi). İngiltərə və Uelsdə cinayətkarlığa dair sorğu (CSEW). Sayt: http://www.crimesurvey.co.uk/index.html, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

ONSb (Milli Statistika İdarəsi), "CSEW istifadəçiləri üçün təlimat, 2014-cü il". Sayt: http://www.google.co.uk/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=1&cad=rja&uact=8&ved=0CCEQFjAA&url=http%3A%2F%2Fwww.ons.gov.uk%2Fons%2Fguide-method%2Fmethod-quality%2Fspecific%2Fcrime-statistics-methodology%2Fuser-guide-to-crime-statistics.pdf&ei=fRkMVc-HMMHbPMC-gZgL&usg=AFQjCNHkBK146wGA_1LYFsSeUuSVYdeO8g&sig2=mh4N3XdzEwdtCMDV1WNJGQ&bvm=bv.88528373,d.ZWU, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

ONSc (Milli Statistika İdarəsi). CSEW anketi. Sayt: http://www.google.co.uk/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=1&cad=rja&uact=8&ved=0CCEQFjAA&url=http%3A%2F%2Fwww.ons.gov.uk%2Fons%2Fguide-method%2Fmethod-quality%2Fspecific%2Fcrime-statistics-methodology%2F2012-13-crime-survey-for-england-and-wales.pdf&ei=CREMVYbqAcqiPdPWgYgN&usg=AFQjCNEPe61-vDHFAkhmrDBwq6dftt_Q9w&sig2=GFtZraQgXIgLq-wPQApq_w, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

ONSd (Milli Statistika İdarəsi). "CSEW-in illik nəticələri 2014". Sayt: http://www.ons.gov.uk/ons/rel/crime-stats/crime-statistics/year-ending-september-2014/stb-crime-in-england-and-wales--year-ending-september-2014.html, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

Tigesen, Lau Kaspar və Annetta Kyer Ersböll (redaktorlar) (2011). "Danimarkanın ictimai səhiyyə və sağlamlıq sahəsində sosial təminat üzrə tədqiqatlar üçün demoqrafik reyestrləri – Danimarka reyestrlərinin və tədqiqatlarda onların tətbiqi nəticələrinin təsviri", Skandinaviya ictimai səhiyyə jurnalı (Scandinavian Journal of Public Health), 39 (7): 1-209.

UNODC (BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi) (2015). Statistik məqsədlər üçün cinayətlərin beynəlxalq təsnifatı, mart 2015-ci il, versiya

1.0. Sayt: http://www.unodc.org/documents/data-and-analysis/statistics/crime/ICCS/ICCS_final-2015-March12_FINAL.pdf.

Uolbi S. (2004). Məişət zorakılığının nəticələri. London: DTI Qadınlar və bərabərlik məsələləri bölməsi, London,  sayt: www.devon.gov.uk/cost_of_dv_report_sept04.pdf.

Uolbi S. (2005), "Qadınlara qarşı zorakılığın statistikasının təkmiləşdirilməsi", Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının Statistika Jurnalı, 22 (4): 193-216.

Uolbi S., Allen C. (2004). Məişət zorakılığı, cinsi zorakılıq, davamlı təqib: Britaniyada cinayətkarlığa dair sorğunun nəticələri, Daxili İşlər Nazirliyinin Araşdırması 276, Daxili İşlər Nazirliyi, London. Sayt: www.avaproject.org.uk/media/28792/hors276.pdf

Uolbi S., Mayhill A. (2001). "Qadınlara qarşı zorakılığın araşdırılmasında yeni sorğu metodologiyaları", Britaniya Kriminologiya Jurnalı (British Journal of Criminology), 41 (3): 502-522.

Uolbi S., Oliv P. (2014). Avropa İttifaqında gender əsaslı zorakılığın nəticələrinin qiymətləndirilməsi. AGBİ, Vilnüs

Uolbi S., Tauers C. və Frensis, B. (2014). "Zorakılığın sosiologiyası və kriminologiyasına məişət zorakılığı və gender əsaslı zorakılığın daxil edilməsi", "Sosioloji İcmal" jurnalı, 62 (S2): 187-214.

ÜST (2005). ÜST-ün Qadınların sağlamlığı və qadınlara qarşı məişət zorakılığına dair ölkələrarası araşdırması. Sayt: https://www.who.int/reproductivehealth/publications/violence/24159358X/en/, sayta keçid tarixi: 9 dekabr 2015-ci il

ÜST (2014). Xəstəliklərin beynəlxalq təsnifatı (ICD). Sayt: http://www.who.int/classifications/icd/en/, sayta keçid tarixi: 9 dekabr 2015-ci il.

**Maddə 11 – Məlumatların toplanılması və tədqiqat**

1. Bu Konvensiyanın həyata keçirilməsi məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

*a.* bu Konvensiyanın əhatə dairəsinə daxil olan zorakılığın bütün formaları ilə bağlı hadisələr haqqında müntəzəm olaraq təsnif olunmuş müvafiq statistik məlumatları toplamaq;

*b.* bu Konvensiyanın əhatə dairəsinə daxil olan zorakılığın əsas səbəblərini və nəticələrini, baş verən halların və çıxarılmış ittiham hökmlərinin sayını, habelə bu Konvensiyanın həyata keçirilməsi üçün görülən tədbirlərin səmərəliliyini araşdırmaq üçün bütün zorakılıq formalarına dair aparılan tədqiqatlara dəstək olmaq.

2. Tərəflər bu Konvensiyanın əhatə dairəsinə daxil olan bütün zorakılıq formalarının yayılmasını və meyllərini qiymətləndirmək məqsədilə əhali arasında müntəzəm sorğular keçirməyə çalışmalıdır.

3. Tərəflər beynəlxalq əməkdaşlığa təkan vermək və müqayisəli beynəlxalq təhlillərin aparılmasına imkan yaratmaq üçün bu Konvensiyanın 66-cı maddəsində göstərilən ekspertlər qrupunu bu maddəyə əsasən toplanmış məlumatlarla təmin edirlər.

4. Tərəflər bu maddəyə əsasən toplanmış məlumatların ictimaiyyət üçün açıq olmasını təmin edirlər.

AZE

Avropa İttifaqına Üzv Dövlətlər öz təcrübələrini, resurs və müqəddəratlarını birləşdirmək qərarına gəlmişlər. Onlar birlikdə sabitlik, demokratiya və davamlı inkişaf zonası qurmuş, eyni zamanda mədəni müxtəlifliyi, tolerantlıq və fərdi azadlıqlarını qoruyub saxlamışlar. Avropa İttifaqı hüdudlarından kənarda olan ölkə və xalqlarla öz nailiyyət və dəyərlərini bölüşmək öhdəliyinə sadiq qalır.

http://europa.eu

Avropa Şurası qitənin insan hüquqlarının müdafiəsi sahəsindəki aparıcı təşkilatdır. O, Avropa İttifaqının bütün üzvləri də daxil olmaqla 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqlarını, demokratiyanı və hüququn aliliyini qorumaq üçün nəzərdə tutulmuş Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıb. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə həyata keçirilməsinə nəzarət edir.

www.coe.int

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE